

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

06 iyun 2026-cı il, şənbə

№ 097 (7164)

Qiyməti 60 qəpik





**Prezident İlham Əliyev minifutbol üzrə Avropa çempionatının qalibi olan Azərbaycan milli komandasını təbrik edib.**

**Bununla bağlı dövlətimizin başçısının sosial şəbəkə hesablarında paylaşım edilib.**

**"2022-ci ildə Avropa çempionu, 2025-ci ildə dünya çempionu olmuş Azərbaycan minifutbol millisi ölkəmizin idman tarixinə daha bir parlaq səhifə yazaraq növbəti dəfə Avropa çempionu oldu. Bu qələbənin komanda idman növündə qazanılması ikiqat sevindiricidir.**

**Komandamızı bu möhtəşəm qələbə münasibətilə səmimi-qəlbdən təbrik edir, millimizə yeni-yeni uğurlar arzulayıram", - deyə paylaşımda bildirilib.**

# Sülh yolunda axırıncı aşırım...

**Azərbaycan və Ermənistan rəhbərliyinin siyasi iradəsi, regional və qlobal amillər, sülh prosesinə qoşulan ABŞ-ın səyləri yekun sülh sazişinin hətta 2026-cı ilin sonunadək imzalana biləcəyi ehtimalını gücləndirir**



Bax səh. 3

# İqtidar-müxalifət münasibətləri yeni inkişaf müstəvisində

Bax səh. 4



Bax səh. 5

## "Şəhərsalma mədəniyyəti: ənənə və müasirliyin sintezi"



Bax səh. 2

## Azərbaycan üçün strateji əhəmiyyətə malik layihə

### Parlamentin növbədənkənar sessiyası başlayıb

Bax səh. 4

### XİN Azov dənizində Azərbaycan vətəndaşlarının olduğu gəmilərə hücumla bağlı açıqlama yayıb

Bax səh. 4

### Kibertəhlükəsizliyə qarşı Bakı Forumu

Bax səh. 5

### Zelenski yenidən atəşkəs təklif edir

Bax səh. 7

### "Bitcoin"in qiyməti rekord həddə ucuzalaşıb

Bax səh. 7



## 1 gün qaldı...

**İyunun 7-də Ermənistan özünün gələcəyini müəyyən edəcək**

Bax səh. 6



## Növbə kimindir?

Bax səh. 6



# Gələcək nəsillərin rifahı bu gün bizim bu çağırışların öhdəsindən gəlmək bacarığımızdan asılıdır

## 2026-cı il Ümumdünya Ətraf Mühit Günü ilə bağlı müraciət

Hörmətli iştirakçılar,

Hamınızı Ümumdünya Ətraf Mühit Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycanın regionda ilk dəfə olaraq bu qlobal tədbirə ev sahibliyi etməsi mühüm hadisədir. Bu, Azərbaycanın beynəlxalq səviyyədə ətraf mühitin mühafizəsi ilə bağlı maarifləndirmənin artırılması sahəsində fəal roluna və planetimizi qorumaq naminə kollektiv səylərə verdiyi töhfəsinə yüksək qiymətin göstəricisidir.

XXI əsrdə ətraf mühitin mühafizəsi beynəlxalq ictimaiyyətin ortaq məsuliyyətidir. İqlim dəyişmələrinin ildən-ilə artan dağıdıcı fəsadları, təbii sərvətlərin, o cümlədən su ehtiyatlarının sürətlə tükənməsi, biomüxtəlifliyin azalması, torpaqların deqradasiyası, çirklənmə və kəskin istilər bir-biri ilə əlaqəli və təxirəsalınmaz tədbirlər tələb edən proseslərdir.

Planetimizin üzləşdiyi ekoloji problemlər təkcə ekosistemlərə deyil, həm də dayanıqlı inkişafa, insan sağlamlığına, həyat şəraitinə və ölkələrin tərəqqisinə ciddi təsir göstərir. Gələcək nəsillərin rifahı bu gün bizim bu çağırışların öhdəsindən gəlmək bacarığımızdan asılıdır.

Biz Azərbaycanda bu öhdəliyə tam məsuliyyətlə yanaşır və ətraf mühitin mühafizəsi sahəsində genişmiqyaslı layihələr həyata keçiririk.

Bu gün ölkə ərazisində həm daşqınların, həm də quraqlığın artdığını müşahidə edirik. Su qıtlığı təkcə Azərbaycan üçün deyil, bütün region üçün ciddi narahatlıq doğuran məsələdir. Xəzər dənizinin səviyyəsinin son iki yüzillik ərzində qeydə alınan tarixi minimum səviyyəyə yaxınlaşması problemin ciddiliyinin bariz göstəricisidir.

Təmiz ətraf mühit və "yaşıl artım" hədəfi 2030-cu ilə qədər Azərbaycanın sosial-iqtisadi inkişafına dair beş əsas milli prioritetdən biri kimi müəyyən edilmişdir. Bu prioritetə uyğun olaraq, yaşıllıqların və meşə sahələrinin artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi və tullantıların idarə olunması məqsədilə müasir infrastrukturun yaradılması üçün məqsədyönlü səylər göstərilir.

Biomüxtəlifliyin qorunması məqsədilə Azərbaycanda xüsusi mühafizə olunan təbiət əraziləri genişləndirilir. Bir çox relikt, həmçinin regional və yerli endemik flora növləri ilə zəngin, nadir meşə massivi olan Hirkan meşələri Azərbaycanın UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş ilk təbiət ərazisidir.

Əfsuslar olsun ki, təxminən 30 il ərzində işğal altında olan ərazilərimiz ekosidə və urbisidə məruz qalmış və bu da həmin ərazilərdə ekoloji tarazlığın pozulmasına səbəb olmuşdu. Bundan əlavə, işğal olunmuş ərazilərdə basdırılmış çoxsaylı minalar bu gün də ciddi ekoloji ziyan vurmaqda davam edir.

Ərazilərimizin işğaldan azad edilməsindən dərhal sonra Azərbaycan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında genişmiqyaslı yenidənqurma və bərpa işlərinə başlamışdı. "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyalarına uyğun olaraq infrastrukturun yenidən qurulması, yaşıl enerji layihələrinin həyata keçirilməsi və müasir texnologiyaların tətbiqi yerli ekosistemin bərpasına töhfə verəcək.

Eyni zamanda, yaşıl enerji zonaları elan edilmiş Qarabağ və Şərqi Zəngəzur günəş, külək və su elektrik resursları da daxil olmaqla geniş bərpaolunan enerji potensialına malikdir. Yaşıl enerjinin inkişaf etdirilməsi Azərbaycanın dövlət siyasətinin prioritetləri sırasındadır.

Hörmətli iştirakçılar,

"Təbiətdən ilhamlanaraq. İqlim naminə. Gələcəyimiz naminə" qlobal çağırış adı altında keçirilən builki Ümumdünya Ətraf Mühit Günü iqlim fəaliyyəti və təbiət arasında qarşılıqlı əlaqənin gücləndirilməsinə təcili ehtiyac olduğunu vurğulayır.

Bu gün iqlim böhranının sərhəd tanımayan fəsadları beynəlxalq əməkdaşlığın gücləndirilməsini zəruri edir. Azərbaycan COP29-a sədrliyi dövründə iqlim diplomatiyası və çoxtərəfli dialoq üçün mühüm platforma təmin etmiş, inkişaf etməkdə olan və inkişaf etmiş ölkələr arasında körpü qurmaqla qlobal həmrəyliyi daha da gücləndirmişdi. Azərbaycanın COP mirasını təşkil edən "Bakı sıçrayışı" tarixi qərarlarla yadda qaldı.

COP29-dan bu günədək iqlim liderliyimiz davam etmiş və Azərbaycan Ümumdünya Şəhərsalma Forumunun tarixində ən genişmiqyaslı, sayca 13-cü sessiyasına ev sahibliyi etmişdi. Tədbir "Bakı Fəaliyyətə Çağırış" sənədinin qəbul edilməsi ilə nəticələnmişdir. Sənəddə beynəlxalq əməkdaşlığın gücləndirilməsinə və hər kəs üçün dayanıqlı, əlçatan və iqlimə davamlı mənzil təminatı üçün konkret addımların atılmasına zərurət olduğu vurğulanır.

Azərbaycan gələcək nəsillərə yaşıl və dayanıqlı bir dünya miras qoymaq məqsədilə çoxtərəfli əməkdaşlığı bundan sonra da təşviq edərək qlobal ekoloji gündəliyin irəlilədilməsində fəal rol oynamağa davam edəcək.

Tədbirin işinə uğurlar arzulayıram.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 5 iyun 2026-cı il**

# Azərbaycan üçün strateji əhəmiyyətə malik layihə

## "Abşeron" qaz-kondensat yatağında 3 yeni quyu qazılmasına başlanılır

Bakı Enerji Forumu çərçivəsində keçirilən "Upstream - yeni perspektivlər" adlı sessiyada çıxışı zamanı "TotalEnergies" şirkətinin Azərbaycan üzrə rəhbəri Emmanuel de Guillebon bildirib ki, Xəzərdə ən perspektivli bloklardan biri olan "Abşeron" qaz-kondensat yatağının tammiqyaslı işlənməsinin növbəti mərhələsi çərçivəsində 3 yeni quyu qazılacaq. Bu, Azərbaycanda qaz hasilatında əhəmiyyətli hasilat artımı üçün yeni dövrün başlanması deməkdir. Çünki Xəzər dənizində "Şahdəniz"dən sonra ikinci böyük qaz yatağı olan "Abşeron" Azərbaycanın qaz sənayesinin və xaricə nəql potensialının ən dayanıqlı mənbələrindən hesab edilir.

Qeyd edək ki, "Abşeron" yatağı Azərbaycan geoloqları tərəfindən 1960-cı illərdə kəşf edilib. Yataqda qaz həcminin 350 milyard kubmetr olduğu proqnozlaşdırılır. "Abşeron"ın işlənməsinə dair hasilat işləri 2009-cu ildə Fransanın "Total" şirkəti ilə SOCAR arasında imzalanmış müqavilə əsasında həyata keçirilir. 2023-cü ilin avqustun 4-də isə Abu Dabi Milli Neft Şirkəti (ADNOC) ilə "Abşeron" qaz-kondensat yatağında 30 faizlik iştirak payının əldə edilməsinə dair imzalanmış sazişə əsasən, Birləşmiş Ərəb Əmirliklərinin şirkəti də bu prosesə cəlb olunub. Hazırda SOCAR və "TotalEnergies" şirkətlərinin hər birinin iştirak payları müvafiq olaraq 35 faiz təşkil edir.

### Üç il əvvəl başlayan uğurlu mərhələ

Tərəfdaş şirkətlər üç il əvvəl layihənin birinci mərhələsinə start verilməklə hasilata başlayıb, eyni zamanda, yatağın geoloji kəşfiyyat işlərini davam etdirib və digər sahələrdə daha yaxşı və ümidverici blokların olduğunu aşkar ediblər. Cənab Guillebonun vurğuladığı kimi proqnozlar gözləntilərdən daha yaxşıdır və hasilatın sabit şəkildə davam etməsi ikinci mərhələnin həyata keçirilməsi üçün tam əsas yaradır. Mövcud dəyərləndirmələrə uyğun olaraq "TotalEnergies" ADNOC və SOCAR-la sıx əməkdaşlıq şəraitində ikinci mərhələnin layihələndirmə və mühəndislik işlərini tamamlayıb. Hazırda icra mərhələsi üzrə tender prosedurları həyata keçirilir və layihənin icrasına bu ilin sonunadək başlanması planlaşdırılır.

"Abşeron"da hasilatın ikinci mərhələsi konsepsiyası da sualtı işlənmə modelinə əsaslanır. Layihə çərçivəsində 3 yeni quyu qazılacaq. Yeni quyular sahildən təxminən 140 kilometr məsafədə yerləşəcək və hasilat birbaşa sahilə nəql ediləcək. Layihədə əlavə hasilat platformalarının tikintisi nəzərdə tutulmur. Quyular birbaşa sualtı infrastruktur vasitəsilə sahilə bağlanacaq. Bu məqsədlə quyuları əsas boru kəmərinə birləşdirən geniş sualtı infrastruktur sistemi qurulacaq. Hasil edilən qaz və kondensatın eyni xətt üzrə daşınmasını təmin etmək üçün çoxfazalı nəql sistemi seçilib. Layihənin maraqlı tərəflərindən biri odur ki, boru kəmərinin istilik izolyasiyası minimum səviyyədə nəzərdə tutulub. Bu yanaşma layihənin kapital xərclərini əhəmiyyətli dərəcədə azaldır. Hər bir quyunun gündəlik hasilat potensialı təxminən 40 min barel neft ekvivalenti təşkil edəcək. Bunun təxminən 30 faizi kondensat, 70 faizi isə təbii qaz olacaq.



### Türkiyəyə 33 milyard kubmetr qaz nəql olunacaq

Beləliklə, yaxın zamanlarda "Abşeron" yüksək kondensat tərkibli qaz yatağı olmaqla, "Şahdəniz"dən sonra Türkiyə və Avropaya qaz nəqlinin əsas ünvanına çevriləcək. Yanacağın böyük bir hissəsi TANAP xətti ilə qardaş ölkəyə çatdırılacaq. Qeyd edək ki, Türkiyənin "BOTAŞ", Fransanın "TotalEnergies" və Abu Dabi Milli Neft Şirkəti (ADNOC) ilə SOCAR arasında imzalanmış qaz təchizatına dair müqaviləyə əsasən, "Abşeron" yatağına yatırılacaq investisiyalar paketi müəyyənləşib. Həmin sərmayələr çərçivəsində hasilatın artırılması və 2029-cu ildən başlayaraq 15 illik müddət ərzində illik 2,5 milyard kub.metr olmaqla, Türkiyəyə ümumilikdə 33 milyard kubmetr təbii qaz nəql olunması nəzərdə tutulur.

SOCAR-ın vitse-prezidenti Babək Hüseynov bildirib ki, "Abşeron" Azərbaycan üçün strateji əhəmiyyətə malik iri qaz-kondensat layihəsidir. Bu layihə çərçivəsində əsas məqsədlər ilk qazın hasilatını sürətləndirmək, yatağın son bərpa əmsalını artırmaq, işlənmə konsepsiyalarını sadələşdirmək və ən əsası kapital intizamını qorumaqdır. SOCAR və operator tərəfdaşlarımızla birlikdə çalışırıq ki, bu layihələr təkcə şirkətlər üçün deyil, bütövlükdə Azərbaycan iqtisadiyyatı üçün səmərəli olsun. Bunun üçün layihələr daha sadə, daha sürətli və daha rasional maliyyə modeli əsasında həyata keçirilməlidir. B.Hüseynov vurğulayıb ki, tərəfdaşlarla birlikdə həyata keçirilən yeni layihələr gələcək perspektivlərə nikbin baxmağa əsas verir.

Növbəti mərhələdə bu yatağın resursları TAP-la da nəql ediləcək. Bu baxımdan Avropa regionu ölkələri dünyada qaza olan tələbatın artdığı bir dövrdə "Abşeron" qaz yatağının zəngin resurslarına ümidlə yanaşır, ikinci mərhələnin başlanmasını sevinclə qarşılayır. Xüsusilə də, Mərkəzi-Şərqi Avropa ölkələri bu amilin özlərinin enerji təhlükəsizliyinin təmin olunmasına böyük töhfə verəcəyinə əminlik ifadə edir. Bir məqamı da nəzərə almaq lazımdır ki, "Abşeron" bloku Xəzərdə qaz hasilatı sənayesi üçün sonuncu perspektiv mənbə deyil, Azərbaycanın digər qaz yataqları da mövcuddur ki, onların da hasilat prosesinə cəlb edilməsi işləri davam etdirilir.

### "Qarabağ", "Babək", "Naxçıvan", "Ümid", "Şəfəq-Asiman"...

Yeni inkişaf layihələrindən danışarkən "Qarabağ" yatağını da qeyd etmək vacibdir. "Qarabağ" layihəsi tamamilə fərqli yanaşmanı nümayiş etdirir. Burada yeni platformaların qurulmasından daha çox, mövcud infrastrukturun imkanlarından istifadə etməklə sualtı birləşmələr və çevik inkişaf konsepsiyaları tətbiq olunur. Əslində bu yanaşma yeni deyil, lakin mövcud infrastruktura inteqrasiya olunmuş inkişaf modeli kimi xüsusi əhəmiyyət daşıyır. Bu model layihələrin icra müddətini qısaldır və hasilatın daha sürətli başlanmasına imkan yaradır. Bütün bunlarla yanaşı, texnologiyanın rolu getdikcə artır. Bu gün sənaye çoxşaxəli quyular, süni intellekt əsaslı seysmik təsvir texnologiyaları və rəqəmsal yataq idarəetmə sistemləri ilə tamamilə yeni mərhələyə qədəm qoyur.

Həmçinin, Xəzərin Azərbaycan sektorunda yerləşən "Babək", "Naxçıvan", "Zəfər-Məşəl", "Ümid", "Alov-Şərq" və "Şəfəq-Asiman" perspektiv strukturlarında proqnozlaşdırılan ehtiyatlar 2,6 trilyondan da çox mənbələrin formalaşmasına əsaslı zəmin yaradır. Bu isə Azərbaycanın qaz ehtiyatları ilə bağlı proqnozların daha böyük olmasına dəlalət edir. İndiyədək respublikamızın qaz ehtiyatları 3-4 trilyon kubmetr təsdiq edilmişdisə, bundan sonra bu proqnoz dəyişərək 5-6 trilyon kubmetr güman olunur.

Avropa ölkələri artıq tam əminliklə 5-10 ildən sonra öz qaz ehtiyaclarının əhəmiyyətli hissəsinin Azərbaycanın nəhəng qaz yataqları - "Şahdəniz", "Ümid", "Abşeron" və "Alov" blokları hesabına təmin olunacağına arxayındır.

Bu hadisə Azərbaycanın qaz ixrac edən ölkələrin sırasında mövqeyini daha da möhkəmləndirəcək. Yeni qaz bumunun başlanması respublikamızın diversifikasiya siyasətinin genişlənməsi və yeni ixrac marşrutlarının yaranması üçün əlverişli zəmin yaradacaq.

*E.CƏFƏRLİ*

# Sülh yolunda axırıncı aşırım...

## Azərbaycan və Ermənistan rəhbərliyinin siyasi iradəsi, regional və qlobal amillər, sülh prosesinə qoşulan ABŞ-ın səyləri yekun sülh sazişinin hətta 2026-cı ilin sonunadək imzalana biləcəyi ehtimalını gücləndirir

Müstəqil Azərbaycan 44 günlük Vətən müharibəsində və 23 saatlıq lokal xarakterli antiterror əməliyyatında qazandığı şanlı zəfərlər sayəsində sırf öz gücünə tarixi ədaləti və beynəlxalq hüququ tam təmin etməklə Cənubi Qafqaz coğrafiyasında yeni reallıqlar yaradıb. Son beş ildə uzun müddət müharibə risklərindən, təhdidlərdən, təxribat cəhdlərindən əziyyət çəkən regionda tarixi proseslər izlənilib.

Artıq Azərbaycanın yaratdığı reallıqların nəticəsi olaraq bu coğrafiya heç vaxt olmadığı qədər sülhə yaxınlaşıb. Yekun sülh sazişinin paraflanmasından sonra proseslər daha da intensivləşib. Əsas məqam ondan ibarətdir ki, hər iki ölkənin iqtidarı sülhə sadiq qaldıqlarını bildirirlər. Beləliklə, sülh yolunda axırıncı aşırım kimi səciyyələndirə biləcəyimiz sonuncu mərhələnin keçilməsi - yekun sülh sazişinin yaxın zamanlarda imzalanması tam realdır. Bunun üçün tərəflərin siyasi iradəsi güclüdür. Eyni zamanda, regional və qlobal amillər, sülh prosesinə qoşulan xarici güclərin, xüsusilə də Amerika Birləşmiş Ştatlarının (ABŞ) səyləri yekun sülh sazişinin hətta 2026-cı ilin sonunadək imzalana biləcəyi ehtimalını gücləndir.



İndiyədək Azərbaycanla Ermənistan arasında sülhyaratma prosesi ayrı-ayrı mərhələlərdən keçib və müxtəlif xarici güclər də bu prosesə qoşulublar. Hazırkı mərhələdə dünyada əsas güc mərkəzi sayılan ABŞ-ın aktivliyi, sülh prosesini sürətləndirmək və məntiqi sonluğa çatdırmaq səyləri nümayiş etdirdiyi ortadadır. Bunu ötən ilin avqustunda Ağ Evdə Azərbaycan, ABŞ, Ermənistan liderlərinin iştirakı ilə baş tutan görüşdən sonra Vaşinqtondan ardıcıl olaraq gələn mesajlar əyani şəkildə təsdiqləyir. Çox döğru olaraq oval kabinetdə baş tutan həmin görüş və burada imzalanan sənədlər silahyaratma prosesində keyfiyyətcə yeni bir mərhələyə keçidi təmin edib. Regionda onilliklər boyunca davam edən müharibənin əsas səbəbi Ermənistanın Azərbaycana qarşı sərgilədiyi ərazi iddiaları olub. Vaşinqtonda Azərbaycan və Ermənistan liderlərinin, eləcə də ABŞ Prezidentinin iştirakı ilə hər iki ölkənin xarici işlər nazirləri tərəfindən paraflanan "Azərbaycan Respublikası ilə Emənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in mətnində əsas müddəalardan biri məhz ərazi bütövlüyü ilə bağlıdır. Azərbaycan və Ermənistan bir-birinin suverenliyini, ərazi bütövlüyünü, beynəlxalq sərhədlərinin toxunulmazlığını və siyasi müstəqilliyini tanıyır və hörmət edirlər. Eyni zamanda tərəflər bir-birinə qarşı hər hansı ərazi iddialarının olmadığını və gələcəkdə belə iddialar qaldırılmayacağını təsdiqləyiblər.

Vaşinqtionda paraflanan sazişin mətnində yer alan bu kimi müddəalar davamlı sülh üçün əsas şərtlər qismində çıxış edir. Ağ Ev administarsiyası son bir ildə ona nail olmaq istəyib ki, Vaşinqton razılaşmaları daha intensiv şəkildə irəliləsin. Bu istək həmçinin son bir neçə gündə Donald Trampın Bakıya ünvanladığı iki məktubda bir daha xüsusi olaraq vurğulanıb. Əvvəla, onu qeyd edək ki, ABŞ kimi supergüc dövlətin prezidentinin cəmi bir neçə gün ərzində Bakıya iki məktub ünvanlaması adi bir hadisə sayıla bilməz. Bu, bir tərəfdən Azərbaycanın, şəxsən Prezident İlham Əliyevin beynəlxalq miqyasda artan nüfuzunun göstəricisidir. Digər tərəfdən, Azərbaycanın Müstəqillik Günü və "Bakı Enerji Həftəsi" ilə bağlı Ağ Evdən paytaxtımıza gələn məktublar Azərbaycan -ABŞ münasibətlərinin keyfiyyətcə yeni bir mərhələyə yüksəldiyini təsdiqləyir.

### D.Trampın məktubundakı şifrəli mesajlar

Vaşinqton Ağ Evdə imzalanan sənədlərin ruhuna sadiqliyini ifadə edir və ölkəmizlə münasibətlərini starteji tərəfdaşlıq səviyyəsinə yüksəltmək istəyir. Bəhs olunan məktublarda da bununla bağlı konkret fikirlər ifadə olunub.

Məktublarda həmçinin sülh gündəliyi nilə bağlı şifrəli mesajlar verilir. D.Trampın fikirləri bir daha təsdiqləyir ki, ABŞ Azərbaycanın sülh gündəliyini bir daha alqışlayır. ABŞ Prezidentinin mövqeyini açıq ifadə etməsi böyük aktuallıq daşıyır. Bununla o, sülh prosesinə əvvəllər olduğu kimi indi də açıq və gizli şəkildə maneçilik törətmək istəyən regional və qlobal oyunçulara öz mesajlarını çatdırır ki, belə çirkin əməllərdən çəkinin, Cənubi Qafqazda ABŞ-ın artan maraqları var və sülh prosesinin qarantı da məhz bu ölkədir. D.Trampın Azərbaycanın müstəqillik Günü ilə bağlı dövlətimizin başçısına ünvanladığı məktubda oxuyuruq: "Birləşmiş Ştatlar Azərbaycan və Ermənistan arasındakı dayanıqlı sülhü dəstəkləməyə davam edir. Ötən ilin avqust ayında parafladığınız sülh sazişinin irəlilədilməsi istiqamətində Azərbaycanın göstərdiyi səylər, həmçinin sərhədlərin delimitasiyası üzrə davam edən proses, 2026-cı ilin yanvar ayında dörd erməni məhbusun azad olunması, Ermənistana yanacaq tədarükü və hər iki ölkənin vətəndaş cəmiyyətlərini bir araya gətirən "Sülh Körpüsü" təşəbbüsü bizi ruhlandırır".

Vaşinqtondan "Bakı Enerji Həftəsi"nə ünvanlanan məktubunda isə D.Tramp daha konkret mesajlar ötürərək Administrasiyasının yaxın vaxtlarda sülh mövzusunda "məhsuldar müzakirələri səbirsizliklə gözlədiyini" diqqətə çatdırıb. "Biz birlikdə sülhü irəliyə doğru aparacaq, rifahı gücləndirəcək və Sizin bölgədə, bütün dünyada daha əmin gələcək quracağıq", - deyə ABŞ Prezidenti vurğulayıb.

Bütün bunlar sülh perspektivinə ABŞ-ın baxışlarıdır. Vaşinqton inanır ki, yekun sülh sazişinin imzalanacağı gün uzaqda deyil.



### Zəngəzur Dəhlizi üzrə saziş imzalandı

Azərbaycanla Ermənistan arasında ötən il Vaşinqtonda paraflanan yekun sülh sazişinin yaxın vaxtlarda - bəlkə də, 2026-cı ilin sonunadək - imzalanacağına böyük ümid yaradan digər bir mühüm amil ABŞ və Ermənistan arasında TRIPP marşrutu (Zəngəzur Dəhlizi) ilə bağlı sazişin imzalanmasıdır. ABŞ dövlət katibi Marko Rubionun bir qədər bundan əvvəl Ermənistana baş tutan səfəri çərçivəsində paraflanan sənəd bu günlərdə onlayn qaydada imzalanıb. Ermənistan tərəfindən sənədi xarici işlər naziri Ararat Mirzoyan imzalayıb. "Müqavilə imzalandı və sənəd Ermənistana göndərildi. İndi mən erməni tərəfi olaraq imzalamışam. Beləliklə, məsafədən imzalanma prosesi başa çatıb və saziş ratifikasiyaya hazırdır", - deyə Mirzoyan bildirib.

Beləliklə, Ermənistanda parlament seçkiləri ərəfəsində Zəngəzur Dəhlizi (TRIPP marşrutu) ilə bağlı daha bir mühüm addım atılıb. TRIPP marşrutu (Zəngəzur Dəhlizi) Orta Dəhlizin (Transxəzər marşrutu) yeni bir seqmentini təşkil edəcək. Azərbaycanın da fəal üzvlərdən biri olduğu Transxəzər marşrutu hazırda dünyanın ikinci böyük iqtisadiyyatı sayılan Çinlə Avropa arasında etibarlı bağlantını təmin edir. Təhdid riskləri ilə üz-üzə qalan bir sıra ənənəvi marşrutların funksionallığının azalması fonunda Orta Dəhlizin yüklənməsinin getdikcə artması müşahidə edilir. Belə olan halda şaxələnmənin zəruriliyi ön plana keçir. Zəngəzur Dəhlizi (TRIPP marşrutu) məhz bu şaxələnməni təmin edəcək.

Bütövlükdə, yeni marşrut optimal regional bağlantı yaradacaq. O cümlədən Mərkəzi Asiya dövlətləri üçün yeni tranzit imkanları açılacaq. Rusiya və İranın Şimal-Cənub marşrutundan asılılığı azalacaq. Qeyd edək ki, respublikamızın ərazisində Şimal - Cənub marşrutu ilə Orta Dəhlizin bağlantısı təmin edilib. Beləliklə də İran və Rusiya da yeni marşrutdan faydalana biləcəklər. Qardaş Türkiyə üçün daha böyük həcmlərdə yük tranzitini həyata keçirmək imkanları yaranacaq.

Zəngəzur Dəhlizinin (TRIPP marşrutunun ) yaradılması Ermənistan üçün də həyati əhəmiyyət daşıyır. Bu ölkə 30 il ərzində işğalçılıq siyasətinin girovluğunda qalıb və əslində dalan vəziyyətə düşüb. Zəngəzur Dəhlizinin (TRIPP marşrutunun ) yaradılması ilə Ermənistanla Türkiyə arasında məlum səbəblərdən bağlı olan sərhədlər açılacaq və bu ölkənin Avropaya asan çıxışı təmin olunacaq.

Eyni zamanda, TRIPP marşrutunda (Zəngəzur Dəhlizində) Azərbaycanın maraqları təmin ediləcək. Burada söhbət ilk növbədə Vaşinqtonda imzalanan sənəddə də vurğulandığı kimi, Azərbaycan Respublikasının əsas hissəsi və Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin edilməsindən gedir. Eyni zamanda, Zəngəzur Dəhlizi (TRIPP marşrutu ) fəaliyyətə başladıqdan sonra Azərbaycanın tranzit imkanları daha da genişləněcək.

Sülh prosesi ilə bağlı ikitərəfli (Azərbaycanla Ermənistan arasında ) və üçtərəfli (Azərbaycan, Ermənistan, ABŞ) platformalarda fəallığın artdığı və tərəflərin sülhə sadiqliklərini qətiyyətlə bəyan etmələri fonunda qonşu Rusiya da prosesdə yer almaq istədiyini bildirib.

### Sülh sazişinin regional platformada imzalanması perspektivi varmı?

"Rusiya Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması üçün platforma təqdim etməyə hazır olduğunu bir daha təsdiqləyir". Bunu Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzin Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumunda (SPIEF-2026) çıxışı zamanı bəyan edib.

Diplomat Moskvanın Azərbaycan - Ermənistan tənzimləmə prosesindəki vasitəçilik rolunu xatırladaraq bildirib: "Sülh müqaviləsinin imzalanması məqsədilə Rusiya platformasını hazırlayıb tərəflərin ixtiyarına verməyə hazırıq".

M.Qaluzin regionun gələcək inkişafında çoxtərəfli formatların əhəmiyyətini də qeyd edib: "Rusiya, İran və Türkiyə ilə yanaşı, Cənubi Qafqaz ölkələri - Azərbaycan, Ermənistan və Gürcüstanı onların tarixi qonşuları ilə birləşdirən 3+3 regional əməkdaşlıq platformasının ciddi potensiala malik olduğunu görürük. Bu mexanizm kənar qüvvələrin dağıdıcı müdaxiləsi olmadan, regionun problemlərinin məhz bu coğrafiyada yerləşən ölkələrin və onların birbaşa qonşularının öz qüvvələri ilə həll edilməsinə xidmət etmək məqsədi daşıyır".

Rusiya XİN rəsmisinin bu açıqlaması ilə bağlı bəzi məqamları xatırlatmaq yerinə düşər. Qeyd edək ki, zamanında 3+3 formatı çərçivəsində bir neçə görüş baş tutsa da, səmərəli nəticələr əldə olunmayıb. Digər tərəfdən, Qaluzinin çağırışına Gürcüstan yenə də "yox" cavabı verərək bəhs olunan formata qoşulmayacağını bir daha bəyan edib.

Digər bir mühüm məqam ondan ibarətdir ki, sülh prosesinin başlanğıcında Moskvanın vasitəçiliyi ilə bir neçə görüş baş tutub və bəzi bəyanatlar səsləndirlib. Lakin bu formatda aparılan müzakirələr substantiv nəticələrə gətirib çıxarmayıb. Bu kimi amillər indiki mərhələdə sülh prosesində Rusiyanın vasitəçiliyinə ehtiyac olmadığı qənaətini formalaşdırır. Bu qənaəti eyni zamanda sülh prosesində ən uğurlu nəticələrin məhz ikitərəfli forrmatda əldə olunması reallığı möhkəmləndirir. Artıq Bakı ilə İrəvan arasında siyasi dialoq var. Paralel şəkildə iqtisadi əlaqələr də bərpa olunur. O cümlədən Rusiya malları Azərbaycandan tranzit keçməklə Ermənistana çatdırılır. Beləliklə, əgər sülh prosesində uğur qazanılırsa, dinamika yüksəkdirsə, geridönüş etməyə heç bir lüzum yoxdur.

### İrəvanda seçkilər və sülh prosesi

Heç şübhəsiz ki, Ermənistanda iyunun 7-də baş tutacaq parlament seçkilərinin nəticələri də sülh prosesi üçün çox önəmlidir. Söhbət ondan gedir ki, seçkilərə qatılan namizədlərin sülh prosesinə yanaşmaları arasında kəskin ziddiyyət var. Seçkilərə qatılan hazırkı iqtidar komandası sülhə sadiqliyini qətiyyətlə bəyan edir. Paralel şəkildə, baş nazir N.Paşinyan Qarabağ, Azərbaycan və Türkiyə ilə bağlı ona ünvanlanan ittihamları geri çevirərək tənzimləmə prosesinin irəli getməsi üçün cəsarətli addımlar atır. O, uzun illər ərzində cəmiyyətə hakim olan Qarabağ, "Böyük Ermənistan" miflərini tamam dağıdıb. N.Paşinyan daim çağırış edir ki, erməni xalqının nicatı xəyali Ermənistan axtarışından əl çəkilməsindədir. Əks halda Ermənistanın özünün itirilməsi tam realdır.

Lakin indiki hakim komandadan fərqli olaraq seçkilərə qatılan bəzi digər namizədlər revanşizm mövqeyindən çıxış edirlər. Onlar Qarabağın "itirilməsi" ilə barışmaq istəmirlər, buradan könüllü şəkildə Ermənistana köç etmiş ermənilərin geri qaytarılması, Bakıda həbsdə olan separatçıların azadlığa buraxılması ilə bağlı cəfəng iddialar səsləndirirlər. Bundan başqa, sabiq prezident R.Köçəryan bildirib ki, qalib gələcəyi təqdirdə sülh sazişinə əlavə təminatlar almağa çalışacaq...

Təbii ki, revanşistlərin vurnuxmaları bütövklükdə sülh gündəliyinə təsir göstərə bilməz. Ancaq onların hakimiyyətə gələcəkləri təqdirdə proseslər müəyyən qədər ləngiyə bilər ki, bu da arzuedilən deyil. Hərçənd, ki, revanşistlərin qalib gəlmək ehtimalı çox zəifdir. Seçkilərin favoriti N.Paşinyan hesab olunur. Hazırkı iqtidar komandasının qalib gələcəyi təqdirdə sülh prosesinin cari ilin sonunadək məntiqi sonluğa çatdırlması ehtimalı yüksəkdir.

Seçkilərdən sonra sülh prosesi ilə bağlı Ermənistanın qarşısında dayanan əsas məsələ Azərbaycanın şərtini yerinə yetirib konstitusiya dəyişikliyini reallaşdırmaqdır. Bununla bağlı hakim komandanın siyasi razılığı var. Həmçinin cəmiyyət də ideyanı sakit qəbul edib. Gələn məlumatlara görə, artıq Ermənistanın qonşu dövlətlərə, o cümlədən də Azərbaycana qarşı ərazi iddiaları ilə bağlı müddəaların yer almayacağı yeni konstitusiyanın mətni hazırdır. Qalır referendum yolu ilə yeni əsas qanunun qəbul edilməsi. Bundan sonra sülh yolunda hansısa bir maneə qalmayacaq!

***Mübariz ABDULLAYEV***

# XİN Azov dənizində Azərbaycan vətəndaşlarının olduğu gəmilərə hücumla bağlı açıqlama yayıb



İyunun 5-i gecə saatlarında heyətində ümumilikdə 25 nəfər Azərbaycan vətəndaşının olduğu iki xarici yük gəmisinə dron hücumları həyata keçirilib. Gəmilər Azərbaycan dövlətinə məxsus deyil.

Xarici İşlər Nazirliyindən bildirilib ki, bu fikri Nazirliyin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə Azov dənizində Azərbaycan vətəndaşlarının olduğu gəmilərin vurulması ilə bağlı yerli medianın sualını cavablandırarkən deyib.

A.Hacızadə bildirib ki, hücum nəticəsində ümumilikdə 5 nəfər vətəndaşımızın həlak olduğu, 3 nəfərin isə yaralandığı barədə Rusiya tərəfindən müvafiq məlumat daxil olub. Yaralılar Yeysk şəhər xəstəxanasına yerləşdiriliblər.

"Hazırda məsələ ilə bağlı Xarici İşlər Nazirliyi tərəfindən aidiyyəti dövlət qurumlarımız, ölkəmizin diplomatik nümayəndəlikləri, habelə müvafiq ölkələrin səlahiyyətli qurumları ilə əlaqələndirmə işləri həyata keçirilir. Rusiyadakı səfirliyimizin bir neçə nəfər əməkdaşı hadisə yerinə yola düşüb. Vətəndaşlarımızın vəziyyəti, onların ölkəyə qaytarılması və zəruri konsulluq dəstəyinin göstərilməsi məsələləri diqqətdə saxlanılır.

Həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə şəfa tapmasını arzulayırıq", - deyə o əlavə edib.

# Rəsmi Bakı: CNN-dən əsassız iddiaların yayıldığı məqalənin təkzib edilməsini gözləyirik

İyunun 5-də "CNN World" xəbər kanalının internet səhifəsində dərc olunmuş məqalədə Azərbaycan ərazisinin guya İrana qarşı hərbi və ya kəşfiyyat əməliyyatları üçün istifadə edilməsi, guya İsrailə məxsus qüvvələrin Azərbaycan ərazisində yerləşdirilməsi barədə əks olunmuş iddialar tamamilə əsassızdır və onları qətiyyətlə rədd edirik.

AZƏRTAC xəbər verir ki, bu fikirlər nazirliyin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadənin "CNN World"-də dərc olunmuş məqalədə Azərbaycanla bağlı əsassız iddialara dair şərhində yer alıb.

Bildirilib ki, sözügedən məqalədə yer alan iddialar Azərbaycan tərəfindən dəfələrlə təkzib edilib və bu mövqe CNN-in sorğusuna cavab olaraq əvvəlcədən redaksiyaya rəsmi qaydada təqdim edilib.

Heç bir tutarlı sübut ortaya qoyulmadan, anonim mənbələrə əsaslanan və Azərbaycanın rəsmi mövqeyini nəzərə almayan iddiaların yayımlanması jurnalistikanın obyektivlik, qərəzsizlik və peşəkar etika prinsipləri ilə ziddiyyət təşkil edir.

Dəfələrlə bəyan edildiyi kimi, Azərbaycan ərazisinin hər hansı üçüncü dövlətə qarşı hərbi əməliyyatlar, kəşfiyyat fəaliyyəti və ya digər düşmən xarakterli məqsədlər üçün istifadə olunması barədə iddiaların heç bir əsası yoxdur. Ölkəmiz bu kimi fəaliyyətlərə heç vaxt icazə verməyib və verməyəcək.

"Azərbaycan regionda sülhün, sabitliyin və mehriban qonşuluq münasibətlərinin təşviqinə sadiqdir. Bu kimi əsassız və heç bir sübuta əsaslanmayan iddialar növbəti dezinformasiya cəhdidir. CNN-dən əsassız iddiaların yayıldığı bu məqalənin təkzib edilməsini gözləyirik", - deyə şərhdə qeyd edilib.

# İqtidar-müxalifət münasibətləri yeni inkişaf müstəvisində

## Prezident Administrasiyasında Real Partiyasının Siyasi Komitəsinin sədri Natiq Cəfərli ilə görüş keçirilib



İyunun 5-də Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev ilə Real Partiyasının rəhbəri Natiq Cəfərli arasında görüş keçirilib.

Partiyanın Mətbuat xidməti tərəfindən verilən məlumata görə, görüşdə ölkənin siyasi gündəmində olan aktual məsələlər ilə yanaşı Partiyanın fəaliyyəti və digər müxtəlif səpgili məsələlər geniş şəkildə müzakirə olunub. Qəbul zamanı dünya və regionda cərəyan edən proseslər fonunda Azərbaycanın mövqeyi, qlobal enerji layihələrdə dövlətimizin artan payı, informasiya təxribatları ilə mübarizədə fəal vətəndaş mövqeyinin əhəmiyyəti, siyasi partiyaların ölkənin informasiya məkanında fəaliyyəti, işğaldan azad olunmuş ərazilərdə görülən bərpa-quruculuq işlərinin miqyası, regionda formalaşan yeni geosiyasi reallıq, iqtidar-müxalifət münasibətlərinin keyfiyyət etibarı ilə yeni inkişaf müstəvisinə keçməsi, yeni nəsil nümayəndələrinin siyasi proseslərə münasibəti və digər bu kimi məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Məlumatda eyni zamanda qeyd olunur ki, ötən müddət ərzində ölkədə siyasi dialoq mühitinin təşviq olunması prosesində Real Partiyasının aktiv iştirakını təqdir edən Administrasiya rəsmisi sağlam əməkdaşlıq mühitinin qorunması işində Partiyanın bundan sonra da öz töhfələrini verəcəyinə əminliyini bildirib.

Görüş zamanı Natiq Cəfərli bildirib ki, yaradılmış mühit siyasətdə etibarlı münasibətlərin bərqərar olmasının əsas səbəbidir. Həmin münasibətlərin qorunması istiqamətində atılmış hər bir addımın müstəsna əhəmiyyətə malik olduğunu vurğulayan Partiyanın rəhbəri mövcud istiqamətdə açıq əməkdaşlıq əlaqələrinin inkişafında hər zaman maraqlı olduğunu qeyd edib. Digər məsələlər ilə yanaşı "Siyasi partiyalar haqqında" Qanun ətrafında da fikir mübadiləsi aparılıb. Qeyd olunub ki, siyasi partiyaların yeni inkişaf mərhələsinin təcəssümü olan sözügedən Qanun partiyaların sistemli və sözün əsl mənasında siyasi institut kimi inkişafının hüquqi əsasını təşkil edir.

Prezident Administrasiyasının rəsmisi milli dövlətçilik ənənələrinin qorunması yolunda Real Partiyasına uğurlar arzulamışdır.

# Parlamentin növbədənkənar sessiyası başlayıb

## Sessiyanın ilk iclasında 8 qanun layihəsi qəbul edilib

İyunun 5-də Milli Məclisin növbədənkənar sessiyası öz işinə başlayıb. Sessiyanın ilk iclasının gündəliyinə 8 məsələ daxil edilib.

Əvvəlcə spiker Sahibə Qafarova iyunun 1-dən 3-dək Serbiya Respublikasına işgüzar səfəri barədə məlumat verib. Səfərdə məqsəd Parlamentlərarası İttifaqın Qadın Parlamentarilərin Qlobal Konfransında iştirak etmək olub. Tədbir "Paritetə doğru irəliləyiş: Gender stereotipləri və mənfi sosial normaların yaratdığı maneələrin aradan qaldırılması" mövzusuna həsr edilmişdi. "Konfransda etdiyim çıxışda mən Azərbaycanda qadınlar barəsində həyata keçirilən dövlət siyasətinə dair tədbir iştirakçılarına geniş məlumat verdim. Həyatın bütün sahələrində qadınların təmsilçiliyinin artırılması istiqamətində görülən işlərdən danışdım. O cümlədən, Milli Məclisdə qadınların təmsil olunması və parlamentin fəaliyyətində qadın deputatların iştirakı ilə bağlı faktları nəzərə çatdırdım"- deyən S.Qafarova işgüzar səfəri uğurlu hesab edib.

Sonra iclasın gündəliyindəki məsələlər müzakirə olunub. Əvvəlcə "Diplomatik xidmət haqqında" Qanunda dəyişikliklər üçüncü oxunuşda qəbul edilib.

Sonra "Korrupsiyaya qarşı mübarizə haqqında" qanunda dəyişiklik edilməsi barədə qanunun icrası ilə əlaqədar bəzi qanunlara təklif edilən dəyişikliklər müzakirə edilib. Sənədə görə, korrupsiya ilə bağlı məlumat verən şəxslərin müdafiəsi gücləndirilir, dövlət və bələdiyyə qulluqçuları üçün yeni hesabatlılıq mexanizmləri tətbiq olunur. Belə ki, layihəyə əsasən, korrupsiya ilə bağlı hüquqpozmalar barədə məlumat verən şəxslərin attestasiyası zamanı həmin prosesdə korrupsiyaya qarşı mübarizə sahəsində səlahiyyətli struktur bölmənin və ya şəxsin iştirakı qadağan edilir. Eyni zamanda, belə məlumat vermiş şəxslərə qarşı qisas məqsədilə intizam tədbirləri tətbiq edilərkən irəli sürülən dəlillərin sübut olunması yükü işəgötürənin üzərinə düşəcək.



Dəyişikliklərə əsasən, dövlət və bələdiyyə qulluqçuları qanunsuz maddi və qeyri-maddi nemətlər, imtiyazlar və güzəştlərlə bağlı hallarda birbaşa rəhbər əvəzinə korrupsiyaya qarşı mübarizə sahəsində nəzərdə tutulmuş səlahiyyətli struktur bölməyə və ya şəxsə məlumat verməli olacaq. Həmçinin hədiyyələrin qəbulu, maraqlar toqquşması və etik davranış qaydaları ilə bağlı məsələlərdə də eyni mexanizm tətbiq ediləcək.

Layihə korrupsiyaya qarşı mübarizə sahəsində qanunvericiliyin təkmilləşdirilməsi və mövcud normaların uyğunlaşdırılması məqsədilə hazırlanıb.

Sonra "Dövlət qulluğu haqqında" Qanuna dəyişiklik edilməsi haqqında layihə birinci oxunuşda qəbul edilib. Dəyişikliyə əsasən, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi artıq 1-ci kateqoriya dövlət orqanı statusuna malik olacaq. Bildirilib ki, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəliyi Naxçıvan ərazisində Azərbaycan Prezidentinin müəyyən etdiyi vəzifələri yerinə yetirən icra orqanıdır. Nümayəndəliyə rəhbərliyi Azərbaycan Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən, birbaşa Azərbaycan Prezidentinə tabe olan, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi həyata keçirir.

Təklif edilən digər dəyişikliklərə əsasən, Naxçıvanda Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi və onun müavinləri vəzifələri inzibati vəzifələr təsnifatından çıxarılır, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin köməkçisi vəzifəsi isə üçüncü təsnifat vəzifələr siyahısına daxil edilir. Bu dəyişiklikdən sonra "Dövlət qulluğu haqqında" qanun Naxçıvanda Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi və onun müavinlərinə şamil olunmayacaq. Həmin vəzifələri tutan şəxslərin xidmət illəri nəzərə alınmaqla əməyinin ödəniş pilləsi "Dövlət qulluğu haqqında" qanunun 33-4.3-cü maddəsinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən ediləcək.

Qeyd edək ki, əmlakı üzərinə həbs qoyulan şəxslərlə də bağlı Cinayət-Prosessual Məcəlləsində bəzi dəyişiklik edilib. Bununla bağlı təqdim olunan qanun layihəsinə əsasən, təqsirləndirilən şəxs olmayan, lakin əmlak üzərinə həbs qoyulması barədə cinayət prosesini həyata keçirən orqanın qərarı ilə qanuni mənafeyinə toxunulan fiziki şəxs məlum olan sonuncu yaşayış yeri, hüquqi şəxs isə yerləşdiyi ünvan üzrə cinayət prosesini həyata keçirən orqan tərəfindən bildiriş göndərilməklə məlumatlandırılacaqlar. Cinayət prosesini həyata keçirən orqan bu Məcəllənin 99-1.1-ci maddəsində şəxsin göstərilən müraciətinə əsasən 3 (üç) gündən gec olmayaraq onun əmlak üzərinə həbs qoyulmaraq barədə cinayət prosesini həyata keçirən orqanın qərarı ilə qanuni mənafeyinə toxunulan şəxs qismində cinayət prosesinə cəlb edilməsi barədə qərar qəbul edəcək.

Müzakirələrdən sonra qanun layihəsi birinci oxunuşda təsdiqlənib.

İclasda, həmçinin "Yaşıllıqların mühafizəsi haqqında" Qanunda dəyişikliklər məsələsi ikinci oxunuşda qəbul edilib. Layihədə təklif olunan dəyişikliklər əkin təyinatlı torpaqlarda müasir texnologiyaların daha səmərəli tətbiqinə, məhsuldarlığın yüksəlməsinə, fitosanitar mühitin yaxşılaşdırılmasına, su resurslarından istifadənin səmərəliyinin artırılmasına, istehsal prosesində texniki maneələrin aradan qaldırılmasına xidmət edir. Qeyd edilib ki, sənəd kənd təsərrüfatı fəaliyyətinə mane olan yaşıllıqların götürülməsinin hüquqi əsasının və bundan irəli gələrək götürmənin mexanizminin yaradılmasını nəzərdə tutur.

Qeyd edək ki, deputatlar iclasın gündəliyində olan digər qanun layihələrini də qəbul ediblər.

*Nardar BAYRAMLI*

# “Şəhərsalma mədəniyyəti: ənənə və müasirliyin sintezi”













Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı və partiyanın Gəncə şəhər təşkilatının birgə təşkilatçılığı ilə Göygöl rayonunda yerləşən Yaylaq düşərgəsində keçirilən “Heydər Əliyev məktəbi” layihəsinin dördüncü günündə gənc fəallarla “Şəhərsalma mədəniyyəti: ənənə və müasirliyin sintezi” mövzusunda görüş keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Görüşdə çıxış edən Milli Məclisin deputatı Müşfiq Cəfərov, Gəncə Regional Turizm İdarəsinin rəisi Fariz Qarayev və Gəncə-Daşkəsən Regional Gənclər və İdman İdarəsinin rəisi Elşən Hüseynov şəhərlərin xalqın tarixini, mədəniyyətini, həyat tərzini və gələcəyə baxışını əks etdirən canlı məkanlar olduğunu vurğulayıb, şəhərsalma mədəniyyətində ənənə ilə müasirliyin uzlaşdırılmasının xüsusi əhəmiyyət daşıdığını bildiriblər.

Qeyd olunub ki, Azərbaycan son illərdə bu istiqamətdə özünəməxsus şəhərsalma yanaşması formalaşdırıb. Bu yanaşmanın əsas xüsusiyyəti müasir texnologiyaların tətbiqi ilə milli memarlıq irsinin qorunmasının vəhdət təşkil etməsidir. Şəhərlərin inkişafında yalnız estetik görünüş deyil, insanların rahatlığı, ekoloji tarazlıq, sosial inteqrasiya və mədəni irsin yaşadılması da əsas prinsiplər kimi qəbul edilir.

Həmçinin vurğulanıb ki, Bakıda keçirilmiş Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyası (WUF13) Azərbaycanın şəhərsalma sahəsində qazandığı təcrübənin beynəlxalq ictimaiyyətlə paylaşılması baxımından mühüm platforma rolunu oynayıb.

Müzakirələr zamanı Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən genişmiqyaslı yenidənqurma və bərpa layihələrinin müasir şəhərsalma standartlarının uğurlu nümunəsi olduğu diqqətə çatdırılıb. Qeyd edilib ki, Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyaları milli memarlıq elementləri ilə harmonik şəkildə birləşdirilərək gələcəyin yaşayış məkanlarının formalaşdırılmasına xidmət edir.

Çıxışlarda gənclərin bu prosesdə mühüm rol oynadığı vurğulanaraq, onların həm milli irsin qorunmasına, həm də innovativ ideyaların tətbiqinə töhfə vermələrinin vacibliyi qeyd edilib.

Diskussiya zamanı gənclər mövzu ilə bağlı fikirlərini bölüşərək fəal müzakirələr aparıblar.

Görüş Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsilə başa çatıb.

Daha sonra iştirakçıların Göygöl Milli Parkına ekskursiyası təşkil olunub. Gənclər parkın təbii gözəllikləri ilə yaxından tanış olub, Göygölün yaranma tarixi haqqında məlumat əldə ediblər. Ekskursiya zamanı ətraf mühitin qorunmasının əhəmiyyəti barədə maarifləndirici söhbətlər aparılıb.

Həmin gün layihə iştirakçıları arasında tir atıcılığı üzrə idman yarışı və “Zamanın izində: tarix və inkişaf” mövzusunda Breyn-rinq formatında intellektual oyun da keçirilib.

# Kibertəhlükəsizliyə qarşı Bakı Forumu

## Azərbaycan dünya ölkələrini kiberdiplomatiya platformasında birləşdirir

Azərbaycanda kibertəhlükəsizlik ekosisteminin inkişafı, dövlət və özəl sektor arasında əməkdaşlığın genişləndirilməsi, insan kapitalının formalaşdırılması və beynəlxalq tərəfdaşlıq əlaqələrinin möhkəmləndirilməsi istiqamətində davamlı  addımlar atılır. Həyata keçirilən fəaliyyətlər kibertəhlükəsizliyin milli təhlükəsizliyin mühüm tərkib hissəsi kimi strateji əhəmiyyətini artırmaqdadır. Bu barədə Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının icraçı direktoru Rauf Cabarov Bakıda keçirilən IV Milli Kibertəhlükəsizlik Forumunda bildirib. Azərbaycan KibertəhlükəsizlikTəşkilatları Assosiasiyasının (AKTA) təşkilatçılığı və Dövlət Təhlükəsizliyi Xidmətinin Milli Kibertəhlükəsizlik Mərkəzinin əsas tərəfdaşlığı ilə keçirilən tədbirdə kibertəhlükəsizlik ekosisteminin inkişafı, beynəlxalq əməkdaşlıq, rəqəmsal transformasiya, süni intellekt texnologiyalarının təhlükəsizlik mühitinə təsiri və yerli innovativ həllərin inkişaf perspektivləri müzakirə olunub.



**Bakıdan verilən mesajlar...**

Kibertəhlükəsizliyin təmin olunması istər milli, istərsə də beynəlxalq səviyyədə ən başlıca məsələyə çevrilib və mütəşəkkil vahid əlaqələndirilmiş fəaliyyət tələb edir. Kiberdiplomatiya üsulları da məhz bu istiqamətdə müxtəlif ölkələrin xüsusi rabitə və texnologiyalar, təhlükəsizlik orqanları ilə yanaşı, bank, sığorta, e-ticarət, sosial media və digər qurumların daha sıx və fəal işləməsini ehtiva edir. Bu baxımdan Bakıda keçirilən forum kiberdiplomatiya üzrə yeni yol xəritəsinin hazırlanması üçün fürsət hesab edilə bilər. Forumda çıxış edən natiqlər rəqəmsal transformasiya şəraitində informasiya təhlükəsizliyinin təmin olunması, dövlət qurumları arasında koordinasiyanın gücləndirilməsi, elmi tədqiqatların və innovativ həllərin tətbiqinin genişləndirilməsi, eləcə də ölkənin kibermüdafiə potensialının artırılması istiqamətində həyata keçirilən tədbirlərdən bəhs ediblər.

Türkiyə Kibertəhlükəsizlik Klasterinin baş koordinatoru Alpaslan Kesici bildirib ki, müasir müharibələrdə kibermәkan əsas mübarizə sahələrindən birinə çevrilib və dövlətlərin enerji, müdafiə sənayesi, dövlət idarəetməsi və digər kritik infrastrukturlarının qorunması strateji əhəmiyyət daşıyır. Dövlət qurumlarında və şirkətlərdə istifadə olunan antiviruslar, təhlükəsizlik divarları və digər kibertəhlükəsizlik məhsullarının böyük hissəsi xarici mənşəlidir. Geosiyasi gərginliklər fonunda bu məhsulların etibarlılığı və davamlı fəaliyyəti ilə bağlı suallar yaranır. Bu məhsulların bir hissəsinin xidmətləri məhdudlaşdırdığı və ya dayandırdığı halları görmüşük. Buna görə də Türkiyə, Azərbaycan və digər TDT ölkələri birlikdə hərəkət etməli, öz texnologiyalarını və məhsullarını yaratmalıdırlar.

**Estoniya Azərbaycanla təcrübə mübadiləsi aparmaq niyyətindədir**

Estoniya İKT Assosiasiyasının icraçı direktoru Doris Pold vurğulayıb ki, öz ölkəsində rəqəmsal texnologiyalar və kibertəhlükəsizlik bir-birindən ayrılmaz sahələr kimi qiymətləndirilir və bütün rəqəmsal həllər “təhlükəsizlik dizayndan başlayır” prinsipi əsasında qurulub. Estoniya 2007-ci ildə genişmiqyaslı kiberhücumlarla qarşılaşdıqdan sonra kibertəhlükəsizliyi dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevirib. Bu gün ölkədə kibertəhlükəsizlik sahəsində ixtisaslaşmış şirkətlər və güclü dövlət-özəl sektor əməkdaşlığı formalaşıb. Estoniya şirkətləri beynəlxalq kibertəhlükəsizlik layihələrində fəal iştirak edir və Azərbaycanla da bu istiqamətdə əməkdaşlıq imkanlarını yüksək qiymətləndirir.

D. Pold vurğulayıb ki, kibertəhlükəsizlik sahəsində uğur yalnız dövlətlərin deyil, özəl sektorun, akademik dairələrin və beynəlxalq tərəfdaşların birgə fəaliyyəti ilə mümkündür: Bu baxımdan Azərbaycanla təcrübə mübadiləsi və yeni tərəfdaşlıqlar hər iki tərəf üçün faydalı ola bilər.

Qazaxıstan Dövlət Texniki Xidmətinin sədrinin birinci müavini, Milli İnformasiya Təhlükəsizliyi Koordinasiya Mərkəzinin rəhbəri Ulıkbek Şambulov da kibertəhlükəsizlik məsələlərinə ciddi diqqət yetirildiyini, bu istiqamətdə Azərbaycanla əməkdaşlıq etmək niyyətlərini diqqətə çatdırıb.




**47 milyon kibertəhlükəsizlik mütəxəssisinə ehtiyac yaranacaq**

“Marlinix” şirkətinin baş icraçı direktoru Mahir Yüksel isə qeyd edib ki, süni intellekt texnologiyalarının sürətli inkişafı ilə yanaşı, insan amili hələ də kibertəhlükəsizlik sahəsində ən böyük risk olaraq qalır. Çünki kibertəhlükəsizlik insidentlərinin əsas səbəblərindən biri insan səhvləri və mövcud zəifliklərdir. Vurğulayıb ki, süni intellektin kibercinayətlərdə istifadəsi nəticəsində dünya üzrə kiberhücumların orta maliyyə dəyəri 4,9 milyon dollara yüksəlib. O qeyd edib ki, “prompt injection”, “adversarial” hücumlar və təchizat zəncirinə yönəlmiş hücumlar süni intellekt sistemlərinin qarşılaşdığı əsas təhdidlər sırasındadır.

Baş icraçı direktor vurğulayıb ki, böyük dil modelləri (LLM), kompüter görməsi (Computer Vision) və gücləndirici öyrənmə (Reinforcement Learning) texnologiyaları tibb, təhsil, hüquq, nəqliyyat və iqlim modelləşdirilməsi kimi sahələrdə geniş imkanlar yaratmaqla yanaşı, kibercinayətkarlar, dezinformasiya kampaniyaları və hərbi məqsədlər üçün də istifadə oluna bilər. O əlavə edib ki, generativ süni intellekt alətləri texniki bilikləri məhdud olan şəxslərə belə zərərli proqram təminatı hazırlamaq, istismar kodları yazmaq və sistemlərə hücum etmək imkanları yaradır ki, bu da kibertəhlükəsizlik sahəsində yeni çağırışlar formalaşdırır. Bu çağırışlar fonunda yaxın beş il ərzində dünyada təxminən 47 milyon yeni kibertəhlükəsizlik mütəxəssisinə ehtiyac yaranacaq.

**Azərbaycanın strateji baxışı...**

Azərbaycanın informasiya məkanının müasir təhdidlərdən qorunması milli təhlükəsizliyin əsas istiqamətlərindəndir. Ölkəmizdə kiber təhlükəsizliyə nəzarəti həyata keçirən Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti davamlı olaraq dövlət qurumlarının informasiya təhlükəsizliyinin təmini üçün birgə tədbirlər görür. Həmçinin peşəkar kibertəhlükəsizlik kadrlarının hazırlanması və bu sahədə ixtisaslı işçi qüvvəsinin qorunub saxlanılmasına önəm verir, bu sahəyə investisiyalar yatırmağı planlaşdırır. Dövlət Təhlükəsizliyi Xidmətinin Milli Kibertəhlükəsizlik Mərkəzinin məsul nümayəndəsi Elvin Balacanovun sözlərinə görə, peşəkar kibertəhlükəsizlik kadrlarının formalaşdırılması və saxlanılması istənilən ölkə üçün ən önəmli investisiya istiqamətlərindən biri olmağa davam edir. E. Balacanovun fikrincə, süni intellekt həm kibertəhdidlərin, həm də kibermüdafiə mexanizmlərinin transformasiyasına təsir göstərməyə davam etdikcə, innovasiyanın kollektiv təhlükəsizliyi zəiflətmək yox, əksinə möhkəmləndirməsini təmin etmək baxımından regional əməkdaşlıq daha böyük əhəmiyyət kəsb edəcək. Azərbaycan beynəlxalq və regional əməkdaşlığa, eləcə də tərəfdaşlıqlara investisiya yatırmağın vacibliyini bir daha ortaya qoyur. Paylaşılan təcrübələr sübut edir ki, kibertəhdidlər qlobal xarakter daşısa da, effektiv mübarizə yolları praktiki əməkdaşlıq, qarşılıqlı etibar və rəqəmsal gələcəyimizin təhlükəsizliyini təmin etməyə yönəlmiş ortaq öhdəliklər vasitəsilə formalaşdırılır.

**Əməkdaşlıq memorandumları imzalanıb**

Forum çərçivəsində Corey Deng Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının Məşvərət Şurasına üzv təyin olunması münasibətilə AKTA-nın Fəxri Üzvlük Sertifikatı ilə təltif edilib. Eyni zamanda, AKTA ilə “Huawei Technologies” arasında əməkdaşlıq memorandumu imzalanıb. Memorandum kibertəhlükəsizlik sahəsində bilik və təcrübə mübadiləsinin genişləndirilməsi, birgə təşəbbüslərin həyata keçirilməsi və insan kapitalının inkişafına dəstək məqsədi daşıyır.Forum çərçivəsində AKTA ilə Azərbaycan Dövlət İqtisad Universiteti arasında əməkdaşlıq memorandumu da imzalanıb. Bundan əlavə, AKTA, Ukrayna Elmi Kibertəhlükəsizlik Assosiasiyası, Moldova Texniki Universiteti və Gürcüstan Elmi Kibertəhlükəsizlik Assosiasiyası arasında regional əməkdaşlığı gücləndirməyə yönəlmiş çoxtərəfli memorandum imzalanıb.

IV Milli Kibertəhlükəsizlik Forumu ölkədə kibertəhlükəsizlik sahəsində dövlət, özəl sektor, akademik mühit və beynəlxalq tərəfdaşlar arasında əməkdaşlığın gücləndirilməsi, bilik və təcrübə mübadiləsinin genişləndirilməsi, eləcə də yeni tərəfdaşlıqların formalaşdırılmasına mühüm töhfə verəcək.

***E.CƏFƏRLİ***

# İyunun 7-də Ermənistan özünün gələcəyini müəyyən edəcək

# 1 gün qaldı...

Ermənistanda parlament seçkilərinə 1 gün qalır. İyunun 7-də seçicilər hansı siyasi qüvvəyə etimad göstərdiklərini təsdiqləyəcəklər.

Parlament seçkilərində 16 partiya və iki partiya bloku mübarizə aparır. Onların arasında baş nazir Nikol Paşinyanın rəhbərlik etdiyi "Vətəndaş Müqaviləsi" partiyası, həmçinin Ermənistanın sabiq prezidenti Robert Köçəryanın Ermənistan ("Hayastan") və Narek Karapetyanın "Güclü Ermənistan" blokları da var. Rusiyalı iş adamı Samvel Karapetyanın təsis etdiyi "Güclü Ermənistan" blokuna eyniadlı partiya, "Yeni Dövr" və "Birləşmiş Ermənilər" partiyaları daxildir.

## Seçkinin favoritləri hansı siyasi qüvvələrdir?

Siyasi situasiya baxımından seçkinin gedişi və nəticəsi isə Ermənistanın gələcəyi üçün olduqca böyük məna kəsb edir. Belə ki, Paşinyanın hər iki rəqibi revanşist qüvvələrin və daha çox Rusiya meyilli siyasi təmayülün təmsilçiləri sayılırlar. Bu baxımdan, seçkini "qütblərarası savaşın seçkisi" adlandıranlar da var. Məlum olduğu kimi, Nikol Paşinyan son bir neçə ildə ölkəsini Rusiya orbitindən uzaqlaşdıraraq Qərbə inteqrasiya yolunu seçib. Paralel olaraq, regional münasibətlər sisteminə baxış fərqlidir - Paşinyan ötən ilin avqustunda Vaşinqtonda sülh sazişinin paraflanması sənədinə imza atıb, konstitusiya dəyişikliyini və Azərbaycan torpaqlarına əsassız iddialardan əl çəkmək yolunu seçib, ölkəsinin yeni iqtisadi nizamda logistik iştirakını təsdiqləyib. Amma digər iki namizəd məsələlərə baxışında tam fərqli bir yol təqib etməkdədir.

Rusiyanın "patronajlığı" altında seçkiyə qatıldığı iddia edilən Samvel Karapetyan Ermənistan ictimaiyyətində daha çox oliqarx kimi tanınır. Ötən ilin iyunun 18-də "hakimiyyətin zorla ələ keçirilməsinə açıq çağırışlar etmək" maddəsi ilə ittiham olunaraq həbs edilmişdi. Həmin vaxt Ermənistan hüquq-mühafizə orqanları bildirmişdilər ki, Karapetyanın açıqlamaları və fəaliyyətləri ölkənin konstitusion quruluşu üçün təhlükə yaradıb. Sonradan həbsxana təcridi ev dustaqlığı ilə əvəz edilsə də, bu ilin yanvarında Karapetyan məhkəmənin qərarı ilə yenidən "dörd divar" arasına qaytarıldı. Cəmisi 1 gün sonra isə bu qərar da dəyişdirildi - Karapetyan yenidən ev dustaqlığına qayıtdı.

73 yaşlı Köçəryanın isə seçkilərdəki qələbə ehtimalı zəif dəyərləndirilir - səbəb kimi isə, onun rəhbərliyi dövründə Ermənistanın acılıq və səfalət içində olması göstərilir. Bununla belə, revanşist Köçəryan komandası Rusiyanın dəstəyinə ümid edir. Lakin seçki öncəsi rəy sorğuları hazırkı baş nazir Nikol Paşinyanın başçılıq etdiyi "Mülki Müqavilə" partiyasının öndə olduğunu göstərir. Bunun əsas səbəbi kimi isə Ermənistan cəmiyyətinin Paşinyanın sülh siyasətinə dəstək verməsidir.



## Rusiyanın təzyiqləri nəticələrə təsir edəcəkmi?

Bütün bunların fonunda revanşistlər ictimai rəydə nüfuz qazanmaq üçün Qarabağ kartından yenidən istifadə etməyə çalışırlar. Digər tərəfdən, seçki öncəsi Rusiyada müəyyən dairələr Paşinyana təzyiq göstərməyə çalışırlar. Rusiyanın Ermənistana güzəştli şərtlərlə satdığı təbii qazın qiymətinin artırılacağı ilə bağlı xəbərdarlıqlar səslənir. Bundan əlavə, Moskva bəzi Ermənistan məhsullarının idxalına qadağa qoyub. Bu yöndə qadağalar daha da sərtləşməkdədir. Belə ki, son günlər kənd təsərrüfatı məhsullarına qadağalar daha da sərtləşib.

Rusiyanın Ermənistanın kənd təsərrüfatı məhsullarının idxalına tətbiq etdiyi məhdudiyyətlər fonunda Avropa İttifaqı İrəvana 50 milyon avrodan çox təcili yardım paketi hazırlayır. Bu barədə Avropa Komissiyasının sədri Ursula fon der Lyayen Ermənistanın Baş naziri Nikol Paşinyanla telefon danışığından sonra məlumat verib: "Bu gün mən Baş nazir Nikol Paşinyanla Rusiyanın Ermənistana qarşı tətbiq etdiyi son məhdudiyyətlər barədə danışdım. Bu, iqtisadi məcburiyyətdən başqa bir şey deyil və qəbuledilməzdir. Moskva Ermənistan məhsullarına ixrac məhdudiyyətlərinin müddətini uzadaraq siyasi təzyiq göstərmək üçün iqtisadi münasibətlərdən silah kimi istifadə edir. Biz bu taktikanı çox yaxşı bilirik. Məhz buna görə Avropa Ermənistanı qətiyyətlə dəstəkləyir. Biz Avropa İttifaqı tərəfindən dəstək tədbirləri paketi hazırlayırıq. Bu, 50 milyon avrodan çox məbləğdə təcili maliyyə yardımını ehtiva edir. Həmçinin bir sıra Ermənistan malları, xüsusən də aqro-ərzaq sektoru məhsulları üçün ticarətin asanlaşdırılması tədbirləri nəzərdə tutulub".

Fon der Lyayen əlavə edib ki, Aİ İrəvanda keçirilən son sammitdə əldə edilmiş razılaşmalar çərçivəsində Avropa və Ermənistan müəssisələri arasında əlaqələri gücləndirməyə davam edəcək. Onun sözlərinə görə, bu təşəbbüslərin daha da irəliləndirilməsi iyunun 23-də keçiriləcək qarşılıqlı əlaqə məsələləri üzrə platformanın nazirlər görüşündə müzakirə ediləcək: "Biz bütün bu istiqamətlər üzrə səmərəli koordinasiyanı təmin etmək üçün Aİ-Ermənistan birgə işçi qrupu yaratmaq barədə razılığa gəldik. Bu orqan bütün bu təşəbbüsləri, eləcə də gələcəkdəki hər hansı sonrakı tədbirlərin həyata keçirilməsinə nəzarət edəcək".

Rusiya Baş nazirinin müavini Aleksey Overçuk bildirib isə bildirib ki, Avropa İttifaqının Ermənistana ayırmaq niyyətində olduğu 50 milyon avro həcmində maliyyə yardımı iqtisadi dəstək baxımından qətiyyən heç nəyi həll etməyəcək: "Bu, qətiyyən heç nəyi həll etmir. Bizim Ermənistanla ticarət həcmlərimiz tamamilə fərqlidir, bunu heç şərh etmək belə istəmirəm".

Bundan əlavə, son günlər Rusiyada yaşayan ermənilərin də Ermənistana gəlişi artıb. Hakimiyyət yönümlü ekspertlər hesab edir ki, Moskva onları məqsədli şəkildə göndərir ki, səsvermə prosesində Rusiyayönümlü siyasi qüvvələrin üstünlüyünə nail olunsun. Ümumiyyətlə, Rusiyanın mövqeyi belədir ki, əgər Paşinyan hakimiyyəti Avrasiya İqtisadi Birliyini Avropa İttifaqı ilə əvəzləyərsə Ermənistanı çətin vəziyyət gözləyir.

Nəzərə alaq ki, Ermənistanda seçkiqabağı atmosfer son dərəcə gərgindir. Seçki kampaniyası qarşılıqlı ittihamlar, informasiya mübarizəsi, siyasi qalmaqallar və gərginlik fonunda keçdi. Lakin əsas məqam ondan ibarətdir ki, bu seçki kampaniyası artıq, sadəcə parlament mandatları uğrunda siyasi partiyaların mübarizəsi deyil. Əslində, Ermənistan cəmiyyəti dövlətin gələcək inkişaf modelini müəyyənləşdirəcək seçim qarşısındadır. Bu gün Ermənistanda siyasi mübarizə aparanları təsnifatlaşdırsaq, deyə bilərik ki, bir tərəfdə yeni regional reallıqların qəbul edilməsi, qonşularla münasibətlərin normallaşdırılması və daimi qarşıdurma siyasətindən imtina xətti dayanır. Digər tərəfdə isə, hələ də keçmişin siyasi mifləri ilə yaşayan və ölkəni yenidən təhlükəli revanşizm siyasətinə qaytarmağa çalışan qüvvələr var.

Bununla yanaşı, mühüm bir tendensiya da müşahidə olunur. Hakimiyyətə qarşı narazılıq yüksək olsa da, erməni cəmiyyətində revanşist ritorikadan və

## Seçkinin nəticələri sülh prosesinə təsir edəcək

radikalizmdən ciddi yorğunluq hiss olunur. Bir çox vətəndaş Paşinyanı tənqid etsə də, köhnə siyasi elitanın hakimiyyətə qayıdışından da ehtiyat edir.

Azərbaycan üçün isə əsas məsələ gələcək baş nazirin kimliyi deyil. Əsas sual budur: Ermənistan siyasi sistemi ölkəmizə qarşı ərazi iddialarından birdəfəlik imtina etməyə, konstitusiyaya dəyişiklik etməyə və beynəlxalq hüquq prinsipləri əsasında sülh prosesini başa çatdırmağa hazırdırmı? Məhz bu, seçkilərin əsas nəticə göstəricisi olacaq. Əgər seçkilərdən sonra Nikol Paşinyan hakimiyyətdə qalarsa, sülh prosesinin davam etməsi ehtimalı daha yüksək görünür. Çünki bütün tənqidlərə baxmayaraq, məhz Paşinyan hakimiyyəti son illərdə Ermənistanın əvvəlki siyasi xəttinin iflasa uğradığını etiraf edən ilk hökumət olub. Onun dövründə Azərbaycanla sərhədlərin delimitasiyası istiqamətində addımlar atılıb, ərazi bütövlüyünün qarşılıqlı tanınması ilə bağlı bəyanatlar səsləndirilib və sülh müqaviləsi üzrə danışıqlarda müəyyən irəliləyiş əldə olunub.

Bütün hallarda Azərbaycanın mövqeyi dəyişməz olaraq qalır. Rəsmi Bakı sülh müqaviləsinin imzalanmasında maraqlıdır, lakin bu sənəd hüquqi və siyasi baxımdan dayanıqlı olmalıdır. Bu isə Ermənistanın konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının aradan qaldırılmasını, revanşizm siyasətindən imtinanı və regionda yeni münasibətlər sisteminin formalaşdırılmasını tələb edir. Ona görə də seçkilərin əsas nəticəsi parlamentdə mandatların bölgüsü deyil. Əsas nəticə Ermənistanın, hansı siyasi seçimi edəcəyidir: gələcəyə baxan dövlət olmaq, yoxsa keçmişin məğlub olmuş layihələrinə bağlı qalmaq. Məhz bu seçim Azərbaycan-Ermənistan sülh prosesinin gələcəyini və perspektivlərini müəyyən edəcək.

***Nardar BAYRAMLI***

# Növbə kimindir?

# Aİ üzvlüyünə Moldovanın, yoxsa Ukraynanın ilk olaraq qəbul edilməsi diqqət mərkəzindədir

Avropa İttifaqı Şurası Ukrayna və Moldova ilə bu ölkələrin Aİ-yə daxil olması barədə danışıqların başlanmasına hazırlıq prosesinə start verib. Bu barədə Aİ Şurasının Kipr sədrliyi "X" sosial şəbəkəsində məlumat yayıb. "Kipr sədrliyi Ukrayna və Moldovanın Avropa İttifaqına daxil olması üzrə danışıqların birinci klasterinin rəsmi açılışına hazırlıq prosesinə start verib", - deyə məlumatda bildirilib. Kipr tərəfi danışıqların açılması məsələsinin Aİ Şurasında müzakirəsini başa çatdırmaq üçün yaxın günlərdə intensiv iş aparmaq niyyətində olduğunu bildirib.

## Aİ üzvlüyünə potensial namizədlər...

Danışıqlar prosesinin startı iyunun 15-də Lüksemburqda keçiriləcək Avropa İttifaqının genişlənməsi üzrə hökumətlərarası konfrans çərçivəsində baş tuta bilər. Bununla belə, Aİ daxilində İttifaqın genişləndirilməsi ilə bağlı fərqli yanaşmalar mövcuddur. Məsələn, Finlandiya Prezidenti Aleksandr Stubb bildirib ki, 27 üzvdən ibarət Avropa İttifaqı sıralarını daha da genişləndirməyə çalışmalı, üzvlərinin sayını Kanada da daxil olmaqla 40-a çatdırmalıdır. Finlandiyanın paytaxtı Helsinkidə keçirilən konfransda çıxış edən Stubb Aİ-nin daha uzaqgörənliklə düşünməli olduğu ideyasını müdafiə edib. Aİ-nin genişlənməsini "Avropanın ən yaxşı siyasəti" adlandıran Stubb deyib: "Aİ üzvlərin sayını 40 ölkəyə çatdırmağa və Böyük Britaniya, Kanada, Türkiyə, Norveç, İslandiyanı potensial namizədlər kimi təqdim etməyə çalışmalıdır".

Stubb Monteneqro və Albaniyanın üzvlüyə real namizəd ölkələr kimi qiymətləndirildiyini qeyd edib və 2020-ci ildə Aİ-dən çıxan Böyük Britaniyanın yenidən İttifaqa daxil edilməsinin vacibliyini vurğulayıb. Ukrayna, Moldova və Gürcüstanın Aİ-yə üzvlük proseslərində irəliləyişlərinə işarə edən Stubb Türkiyənin önəminə də diqqət çəkərək bildirib: "Biz, həmçinin Türkiyəni ciddi şəkildə nəzərdən keçirməliyik. Artıq heç kim Türkiyədən danışmır. Türkiyənin təhlükəsizlik baxımından mümkün qədər yaxın olması fonunda bu ölkənin nə qədər lazımlı olduğunu anlamağımız vacibdir".



## Aİ komissarı: Moldova üzvlüyə hazırlıq dərəcəsinə görə birinci yerdədir

Qeyd edək ki, Almaniya və Fransa Qərbi Balkan ölkələri və Moldovanın Avropa İttifaqına (Aİ) mərhələli inteqrasiyasını nəzərdə tutan qeyri-rəsmi sənəd hazırlayıblar. "Politika" nəşrinin yazdığına görə, plan namizəd ölkələrin danışıqlardakı irəliləyişindən asılı olaraq onlara Aİ-nin daxili bazarına çıxış imkanını verilməsini və bəzi Avropa qurumlarında müşahidəçi statusu əldə etməsini nəzərdə tutur. Sənəd müəllifləri hesab edirlər ki, mərhələli inteqrasiya namizəd ölkələrdə islahatların sürətləndirilməsinə əlavə stimul verəcək.

Hazırda Albaniya, Bosniya və Herseqovina, Gürcüstan, Moldova, Şimali Makedoniya, Serbiya, Türkiyə, Ukrayna və Monteneqro Aİ üzvlüyünə namizəd ölkələr sırasındadır.

Daha çox müzakirə mövzuları sırasında isə Ukraynanın, yoxsa Moldovanın birinci olaraq Aİ-yə üzv qəbul edilməsidir. Aİ-nin genişlənmə məsələləri üzrə komissarı Marta Kos hesab edir ki, Moldova Avropa İttifaqına üzvlüyə hazırlıq dərəcəsinə görə birinci yerdədir. O, Kişineuda Moldova Prezidenti Maya Sandu ilə danışıqların yekunları üzrə keçirilən mətbuat konfransında bu bəyanatla çıxış edib. "Moldova Avropa İttifaqına üzvlüyə hazırlıq dərəcəsinə görə birinci yerdədir. Ümid edirik ki, Kiprin sədrliyi dövründə iyunun ortalarında danışıqların ilk fəslini aça biləcəyik. Bu, həm də Avropa Komissiyasının mövqeyidir: Moldova və Ukrayna danışıqların bütün fəsillərini açmağa hazırdır. Ümid edirəm ki, bu, yay tətilindən əvvəl baş verəcək", - deyə Kos qeyd edib.

Onun sözlərinə görə, Moldovanın islahatların həyata keçirilməsi sahəsində əldə etdiyi nəticələr investisiyalar üçün 600 milyon avrodan çox vəsait səfərbər etməyə imkan verib: "Moldova islahatları 93 faiz səviyyəsində yerinə yetirib ki, bu da yüksək nəticədir və investisiyalar üçün 600 milyon avrodan çox vəsait səfərbər etməyə imkan verib. Belə sabitlik və əlverişli mühit Moldovanın biznes üçün cəlbediciliyini daha da artırır".

Macarıstan isə Ukraynanın Avropa İttifaqına üzvlük danışıqlarına qoyduğu 17 aylıq vetonu ləğv edib. "Financial Times"ın məlumatına görə, bu addım Ukrayna və Moldovanın üzvlüklə bağlı rəsmi danışıqlara artıq iyunun 15-dən başlamasına imkan yaradır. Nəşr yazır ki, Peter Madyarın başçılıq etdiyi Macarıstan hökuməti danışıqlar prosesinin daha da irəliləməsini dəstəkləməyə razılıq verib: "Peter Madyarın ötən gecə qəbul etdiyi qərar hər iki ölkə üçün iyunun 15-də danışıqların başlamasına yol açır. Bu, onların birinci danışıq klasteri çərçivəsində qanunvericiliklərini Aİ standartlarına uyğunlaşdırmağa başlamağa imkan verəcək". Madyar bəyan edib ki, Budapeşt Ukraynada macar azlığın dil, təhsil, mədəni və siyasi hüquqları məsələlərində hərtərəfli razılığa nail olunduqdan sonra Ukraynanın avrointeqrasiyasını dəstəkləyəcək.

Nəşrin yazdığına görə, razılaşma Kiyev, Budapeşt və Brüssel arasında intensiv məsləhətləşmələrdən sonra, eləcə də Avropa İttifaqının digər üzv dövlətlərinin diplomatik səyləri nəticəsində əldə edilib. Kiprin Avropa məsələləri üzrə nazir müavini Marilena Rauna Ukrayna və Moldova ilə danışıqların başlaması barədə qərarı tarixi addım adlandırıb. Nəşr bildirir ki, Macarıstanın mövqeyi Aİ ölkələrinin səfirlərinin Brüsseldəki görüşündən sonra dəyişib.

Bununla belə, Ukraynanın Aİ üzvlüyünə çıxanlar da var. Belə ki, Polşa Ukraynanın Avropa İttifaqı üzvlüyü yolunda yeni maneəyə çevrilə bilər. "The European Conservative" jurnalında dərc olunan məqalədə deyilir ki, Varşava ilə Kiyev arasında münasibətlərin korlanması fonunda Polşa hökumətinin siyasəti Ukraynaya qarşı daha sərt və qarşıdurma xarakteri ala və bu ölkənin Avropa İttifaqına üzvlüyünə əngəl yarada bilər.

## Polşa və Almaniya Ukraynanın üzvlüyünə əngəl ola bilər

Polşa ilə Ukrayna arasında gərginliyin yeni mərhələsi mayın 26-da Ukrayna Prezidenti Volodimir Zelenskinin Xüsusi Əməliyyat Qüvvələrinin "Şimal" xüsusi əməliyyatlar mərkəzinə Ukrayna Üsyançı Ordusunun döyüşçülərinin adının verilməsi barədə qərarından sonra yaranıb. Bu addım Polşada ciddi narazılıq doğurub. Polşanın sabiq Prezidenti Lex Valensa Volodimir Zelenskinin bu qərarla həlak olmuş polyakların xatirəsini təhqir etdiyini bildirib. Polşa Prezidenti Karol Navrotski isə Ukrayna dövlət başçısının ölkənin ən ali dövlət mükafatı olan "Ağ Qartal" ordenindən məhrum edilməsi təklifini irəli sürüb.

Bundan əlavə, "Almaniya üçün Alternativ" partiyasının həmsədri Alis Vaydel də Ukraynanın Avropa İttifaqına üzvlüyünün Almaniyanın maraqlarına cavab vermədiyini bildirib. Siyasətçi bu fikri Ukrayna və Moldovanın Aİ-yə qəbulu ilə bağlı danışıqlara başlanması istiqamətində rəsmi hazırlıqların aparılması barədə məlumatı şərh edərkən səsləndirib. Alis Vaydel Ukraynanın Avropa İttifaqına üzvlüyünün, ilk növbədə, Almaniya üçün böyük maliyyə yükü yaradacağını vurğulayıb. Partiya həmsədri hesab edir ki, bu, Berlin üçün əlavə öhdəliklər formalaşdıracaq. Siyasətçinin fikrincə, belə bir qərarın siyasi və iqtisadi nəticələri Almaniya tərəfindən diqqətlə qiymətləndirilməlidir.

***N.BAYRAMLI***

# Zelenski yenidən atəşkəs təklif edir

## Ukrayna lideri rusiyalı həmkarına məktubunda nə yazıb?




Rusiya - Ukrayna müharibəsinin başa çatması ilə əlaqədar diplomatik danışıqlar dalana dirənib. Fevral ayından sonra sülh danışıqları aparılmır. Bir neçə gün öncə isə Moskva münaqişənin başa çatması üçün şərtini bir daha açıqlamışdı. Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib ki, Rusiya Ukraynadakı məqsədlərinə çatacaq, lakin Moskva yenə də sülh danışıqları yolu ilə nəticə əldə etməyə üstünlük verir. Onun sözlərinə görə, əgər Ukrayna tərəfi prosesi təxirə salmağa, əsl sülh danışıqlarından və dinc həll yoluna aparacaq ciddi qərarlardan imtina etməyə davam edərsə, xüsusi hərbi əməliyyat davam edəcək. Kremlin sözçüsü əlavə edib ki, Prezident Volodimir Zelenski Ukrayna qoşunlarına “Rusiya bölgələrini tərk etməyi” əmr edərsə, xüsusi hərbi əməliyyat sutkanın sonuna qədər başa çata bilər. Peskov bunu deyərkən, Donbası nəzərdə tutub.

**Zelenski Putinlə görüşmək istəyir**

Lakin Kiyev Moskvanın bu şərtini qəbulolunmaz hesab edir və Rusiya ordusunun Ukraynanın beynəlxalq hüquq çərçivəsində tanınan ərazilərindən çıxarılmasını vacib sayır. Rəsmi səviyyədə dəfələrlə Ukraynanın ərazi güzəştinə getməyəcəyi bəyan olunub. Ardınca isə Ukrayna Prezidenti Volodimir Zelenski rusiyalı həmkarı Vladimir Putinə görüş və danışıqlar müddətində atəşkəs təklifi ilə açıq məktub yazıb. Məktubda Zelenski bildirib ki, Ukrayna “hamının hamıya” formulu ilə əsir mübadiləsinə, mülki şəxslərin və uşaqların qaytarılmasına, eləcə də ABŞ və Avropanın təhlükəsizlik qarantları qismində mümkün iştirakı ilə birbaşa ikitərəfli formata hazırdır. O, görüşün neytral ərazidə keçirilməsini təklif edib və deyib ki, cəbhə xətti diplomatiyanın başlayacağı xətt olmalıdır: “Biz öz insanlarımızı itiririk və hər bir itkimiz bizim üçün ağırdır... Siz artıq müntəzəm olaraq, bir neçə aydan bir regionlarımızın, ilk növbədə də Donetsk vilayətinin ələ keçirilməsi üçün son müddətləri təxirə salırsınız. Onu bu il də ələ keçirə bilməyəcəksiniz. Lakin biz Ukraynada daimi müharibə istəmirik. Biz yaxşı bilirik ki, müharibəsiz daha yaxşıdır. Biz buna nail olmaq istəyirik. Mən əminəm ki, rusiyalıların əksəriyyəti buna müsbət cavab verməyə hazırdır və siz bunu bilirsiniz”.



Відкритий лист Президенту Російської Федерації від Президента України

4 червня 2026 року - 21:20

Відкритий лист

Президенту Російської Федерації

від Президента України

Коли ви більш ніж 26 років тому очолили Росію, багато хто в Україні ставився до вас позитивно. Так було. Це вже в минулому.

Зараз абсолютна більшість українців сприймає позитивно те, що наші далекобійні дрони завітали на відкриття вашого форуму в Петербурзі, подолавши відстань у більш ніж 1000 кілометрів. Як ви добре знаєте, ця відстань не є межею наших можливостей.

26 років вашої влади повністю змінили порядок денний у відносинах між Україною та Росією. Від обговорень товарообігу та інших цивільних питань наші народи перейшли до тематики виключно влучань і втрат.

Майже половину з ваших 26 років влади в Росії ви провели у війні проти України.

Що б ви не говорили про НАТО, геополітику та російську мову, ця війна є вашим особистим вибором – війною без реальної причини. Саме так це запам'ятає історія.

Цей час міг би пройти зовсім інакше.

Ми часто чуємо, що війна вас влаштовує. Звісно, не в тих випадках, коли йдеться про безпеку вашої резиденції на Валдаї чи параду в Москві. Ваше власне життя для вас цінне.

Але зараз ми всі бачимо, що це нарешті перестає влаштовувати росіян – те, що війна дає все більше негативу Росії.

Їм не подобаються наші дрони й ракети.

Їм не подобається дефіцит бензину та постійне зростання цін.

Їм не подобаються постійні заборони.

Їм не подобається ваш намір влаштувати другу хвилю мобілізації, щоб розширити війну на інший напрямок в Україні або направити проти якихось іще країн – сусідів Росії.

Їм не подобається, що вашій війні не видно кінця.

Так, ви ще досі можете примушувати росіян так існувати.

Але ваші ресурси суттєво скорочуються.

У вас не вистачить грошей і політичної сили, щоб і надалі купувати лояльність росіян, як ви це робили 26 років. Ми будемо робити все, щоб світ про це подбав.

Як ви самі кажете, «треба все підрахувати».

Вчора я отримав доповідь про втрати вашої армії на фронті в Україні в травні. Це знову понад 30 тисяч убитих і важкопоранених росіян. Ми тримаємо саме такий показник щомісяця, і щодо кожної вашої втрати в нас є відеопідтвердження – це не голослівно.

Ми знаємо, що у ваших втратах на фронті 63 відсотки – це вбиті, і тільки 37 відсотків – поранені. У XXI столітті армії не можуть дозволяти собі такого балансу. Надалі частка вбитих зросте.

Не те щоб ми в Україні переживали про росіян. Після всього, що принесла в Україну ваша війна.

Zelenski qeyd edib ki, müharibə və sülh məsələlərinin həlli üçün ənənəvi olaraq liderləri qəbul edən ölkələr var: “İsveçrə, Türkiyə, ərəb ölkələri - bir çoxları bu görüşə ev sahibliyi edə bilər və etmək istəyir. Məhz liderlər əsas məsələləri həll edirlər - bu, həmişə belə olub və olacaq. Mən görüşün dəqiq tarixini müəyyən etməyi təklif edirəm. Eşitmişik ki, Alyaskada sizə Ukrayna və Avropaya aid olan bəzi məsələlərin həllini söz veriblər. Amma siz görürsünüz ki, Ukrayna və Avropa məsələləri Ankoricdə həll olunmur. Lakin biz hesab edirik ki, ABŞ prosesdə iştirak etməlidir və bu, regionumuzdakı yeni təhlükəsizlik arxitekturasının konfiqurasiyasını müəyyən edə biləcək bir amildir”.

**Tramp liderlərin görüşünü dəstəkləyir**

ABŞ Prezidenti Donald Tramp Ukrayna Prezidenti Volodimir Zelenskinin Rusiya Prezidenti Vladimir Putinlə görüş barədə müzakirə apardıqlarını eşitməkdən məmnun olduğunu bildirib. Bu barədə o, jurnalistlərin suallarına cavabında deyib: “Onlar bunu etməlidirlər. Hər ikisi güzəştə getməlidir. Bu güzəştləri mən təklif etdim”.

Rusiya Prezidenti Vladimir Putin isə iyunun 4-də dünyanın aparıcı informasiya agentliklərinin rəhbərləri ilə görüşdə deyib ki, Moskva və Kiyev arasında mümkün razılaşmalar tarixi sənədlər ola bilər. Onun sözlərinə görə, Moskva Ukrayna ilə sülh yolu ilə və Rusiya-Amerika danışıqları zamanı Ankoricdə müzakirə olunan kompromislər əsasında razılığa gəlməyə hazırdır və bunu istəyir. Putin qeyd edib ki, Rusiya həmin danışıqlarda müzakirə olunan kompromislərə razıdır: “İndi lazımdır ki, bu kompromislərlə Ukrayna tərəfi də razılaşsın. Bu halda münaqişə tezliklə öz təbii sonluğuna çatacaq”. Lakin Moskva Zelenskinin məktubu və onun təklif etdiyi görüşlə bağlı mövqeyini açıqlamayıb.

Xatırladaq ki, əvvəllər Rusiya rəsmiləri bəyan etmişdi ki, Zelenski Putinlə görüşmək istəyirsə, bu görüş Moskvada baş tuta bilər. Lakin Ukrayna lideri bu təklifi rədd edərək görüşün üçüncü ölkələrdə keçirilməsini təklif etmişdi. Putinə məktubundan göründüyü kimi, Zelenski həmin mövqeyində qalır.

**Almaniya, Fransa və Britaniya danışıqları bərpa etməyə çalışır**

Belə bir şəraitdə Almaniya, Fransa və Böyük Britaniya Ukrayna və Rusiyanın iştirakı ilə danışıqlar prosesinin təşkili perspektivlərini müzakirə edir. “Bloomberg” agentliyi məlumatlı mənbələrə istinadən yazdığına görə, üç dövlət diplomatları bir-biri ilə, eləcə də Ukrayna tərəfi ilə Moskva və Kiyev arasında dialoqun başlanması üçün mümkün tədbirlər barədə məsləhətləşmələr aparır. “Bloomberg”in mənbələri bildiriblər ki, ABŞ-ın vasitəçiliyi ilə aparılan danışıqlar səylərinin faktiki olaraq dayandırılması fonunda Avropa dövlətləri Rusiya Prezidenti Vladimir Putini müharibənin başa çatdırılması yollarını müzakirə etməyə cəlb etmək üçün cəhd göstərmək şansı görüblər. “Bununla belə, bu cür prosesin başlanmasına dair yekun qərarın qəbul edilməsi hələ də Ukrayna Prezidenti Volodimir Zelenskinin səlahiyyətində qalır”, - deyə agentliyin həmsöhbətləri vurğulayıblar.

Qeyd olunub ki, Avropa tərəfdaşları Kiyevi Ukrayna hakimiyyətinin dəstəkləməyə hazır olmadığı strategiyanı qəbul etməyə məcbur etməyi planlaşdırmırlar. Bununla eyni vaxtda danışıqlar konsepsiyasının özü Qərb rəsmiləri arasında ziddiyyətlər yaradır. Bu yanaşmanın əleyhdarları hesab edirlər ki, Moskva nizamlama üçün güzəştsiz şərtlərə sadiq qalır. Bir sıra Avropa məmurları əmindir ki, Ukraynanın müttəfiqləri səylərini danışıqlara hazırlığa deyil, Kiyevə hərbi dəstəyin artırılmasına və Rusiyaya qarşı sanksiya rejiminin sərtləşdirilməsinə yönəltməlidirlər. Bundan əlavə, onların fikrincə, Moskva ilə dialoqa başlamaq üçün Avropa öz hərəkətlərini Vaşinqtonla əlaqələndirməlidir.

Bundan başqa, ABŞ Konqresinin Nümayəndələr Palatası Rusiyaya qarşı sanksiya təzyiqinin gücləndirilməsini və Ukraynaya dəstəyin genişləndirilməsini nəzərdə tutan qanun layihəsinin səsverməyə çıxarılması barədə prosedur qərarını dəstəkləyib.

*N.BAYRAMLI*

# “Bitcoin”in qiyməti rekord həddə ucuzalaşıb

## Rəqəmsal pulun dəyəri 120 mindən 64 min dollara düşüb

Dünya rəqəmsal valyuta bazarı yenidən təşviş mərhələsinə daxil olub. Bazarda satışlar güclənərək rekord həddə çatıb ki, bu da qorxu indeksinin 21 bəndə düşməsinə gətirib çıxarıb. İyunun 4-də qlobal kriptovalyuta bazarının kapitallaşması 1,79 faiz azalaraq 2,25 trilyon dollara enib. Ən bahalı kriptovalyuta olan “Bitcoin”in dəyəri daha kəskin ucuzlaşıb. Bir ay əvvəl 120-125 min dollara yüksələn bu rəqəmsal pul indi 64 min dollara düşüb. Bu, maliyyə aləti son altı ayda ən kəskin eniş yaşayaraq psixoloji 70 min dollar səviyyəsindən də aşağı düşməklə bazar iştirakçılarına şok yaşadıb. Bazarın ikinci ən böyük kriptovalyutası olan “Ethereum”un qiyməti isə 1810 dollara qədər geriləyib. Kriptobazarda ilk beşlikdə yer alan digər aktivlərdən “BNB”nin qiyməti 618 dollara qədər enib. “PAX Gold” 4460 dollara, “Tether Gold” isə 4443 dollara düşüb. Bu tendensiya xüsusilə “risk-off” mərhələsinin gücləndiyini nümayiş etdirir.

### ABŞ və İran arasında gərginlik kriptovalyuta bazarına təsir edir

“Bitcoin”in qiymətinin dəyişməsi əsasən tələb və təklif balansından, investorların psixologiyasından və qlobal makroiqtisadi vəziyyətdən asılıdır. Kriptovalyuta bazarlarında qısamüddətli ucuzlaşmaların arxasında bir neçə əsas səbəb dayanır. Onlardan birincisi ABŞ və İran arasında gərginliyin yenidən artması, investorların riskli aktivlərdən çıxması və bazarda kütləvi likvidasiyaların baş verməsidir. Son 2 gündə kriptovalyuta bazarında təxminən 1,4 milyard dollar həcmində bazar seqmenti bağlanıb. Bu isə “Bitcoin”in qiymətinin son yeddi həftənin ən aşağı səviyyələrinə enməsi də satış təzyiqini daha da artırıb.

Bazar iştirakçıları ABŞ-İran qarşıdurmasının inkişafını və onun qlobal maliyyə bazarlarına təsirini izləyirlər. Geosiyasi risklərin artması fonunda investorların daha təhlükəsiz aktivlərə üstünlük verməsi kriptovalyutalara təzyiq göstərməkdə davam edir. Mövcud şəraitdə investorlar kapitallarını qızıl və qızıla bağlı rəqəmsal aktivlərə yönəltməkdədir.

Baş verənlər investorlar arasında güclü ehtiyatlılığın əlaməti olmaqla, risklərin davam etdiyini təsdiqləyir. Analitiklərə görə, kriptovalyuta bazarındakı enişə satış təzyiqi də təsir göstərən amillərdəndir. Belə ki, qiymət müəyyən bir zirvəyə çatdıqda, əvvəllər aşağı qiymətlərlə “Bitcoin” almış investorlar (xüsusilə böyük portfeli olanlar) qazanclarını götürmək üçün kütləvi satışlar edirlər. Bu isə qəfil satış dalğası yaradaraq qiyməti aşağı salır. Bundan başqa, institusional axınlar və investisiya fondlarının və birjaların nizamsız hərəkətləri də



“Bitcoin”in korporativ investorların aktiv satışlarını artırır, bu isə likvidliyi azaldaraq qiyməti aşağı çəkir. Digər faktorlardan biri isə makroiqtisadi qeyri-müəyyənliklərlə əlaqəli hesab edilir.

### ABŞ FES-nin qərarları investorları geri çəkilməyə məcbur edir

ABŞ Federal Ehtiyat Sisteminin (FES) faiz dərəcələri ilə bağlı qərarları və qlobal iqtisadi siyasətlər kriptovalyuta bazarına birbaşa təsir edir. FES-in yürütdüyü siyasət son aylarda maliyyə sisteminə müəyyən təsirlər edir ki, bu da dollar və virtual valyuta qarşıdurmaları fonunda qeyri-müəyyənlikləri artırır. Belə ki, kriptovalyuta bazarı daha çox likvidlik hesabına böyüyən və ondan qidalanan bazardır. Əgər pul dövriyyəsinə məhdudiyyətlər tətbiq edilirsə və bazarda likvidlik azalırsa, bu, ilk növbədə “Bitcoin” və digər riskli aktivlərə təzyiq göstərir. Belə şəraitdə kripto bazarı likvidlik riskləri ilə üzləşir. Bu şəraitdə bazar iştirakçıları faiz dərəcələrinin azaldılacağına ümid etsə də, son siqnallar göstərir ki, FES yüksək inflyasiya risklərinə görə, öz sərt siyasətindən geri çəkilməyə tələsmir. Yüksək faiz dərəcələri isə kreditlərin bahalaşması, dollar və istiqrazların investorlar üçün daha cəlbedici olması və nəticə olaraq riskli aktivlərə, o cümlədən kriptovalyutalara axan likvidliyin azalması deməkdir. Nəticədə, bir çox institusional və iri investorlar portfellərində risk səviyyəsini aşağı salmaq üçün kripto mövqelərini ixtisar etməyə başlayır.

Ekspertlər hesab edir ki, yaxın dövr üçün proqnoz vermək çətindir. Bu, həm FED-in siyasətindən, həm də kriptovalyuta bazarının tənzimlənməsi ilə bağlı qərarlardan asılı olacaq. Mərkəzi bankların nəzarəti gücləndirməsi və bazarın tənzimlənməsi ilə bağlı təşəbbüslər artarsa, kriptovalyutalara əlavə təzyiq yarana bilər.

### Azərbaycanın kriptovalyutalara konservativ baxışı

Azərbaycanda kriptovalyutalara monetar baxış konservativdir, blokçeyn texnologiyalarından istifadəyə müsbət yanaşılsa da, kriptovalyuta sektoru yüksək riskli investisiya aktivləri olduğundan onun maliyyə sektorunda tətbiqi təhlükəli sayılır. Bu sahədə hüquqi infrastrukturun olmaması belə sərt xarici şoklar yarada, daxili valyuta bazarında sabitlik pozula bilər. Eyni zamanda, hazırda ölkəmizdə kriptovalyutaların onlayn alışı və satışı halları mövcud olmasına baxmayaraq, bu risk alətlərinin tənzimlənməsi üçün qəti addımların atılması da aktualdır. Mərkəzi Bank bu sahədə tənzimlənmənin aparılması üçün müxtəlif ssenarilər işləyir və öz strategiyası çərçivəsində bu istiqamətdə tədbirlər görmək niyyətindədir. Bir neçə aydır ki, sınaq testinin keçirilməsi kriptovalyutaya hazırlıq kimi dəyərləndirilə bilər.

Millət vəkili Vüqar Bayramov Azərbaycanda da kriptovalyutalardan istifadə ediləcəyini istisna etmir. Onun fikrincə, Mərkəzi Bank xüsusi tənzimləmə rejiminin ilk mərhələsi üzrə sınaq dövrlərini başa çatdırıb və bu müddətdə 4 innovativ məhsulun qiymətləndirilməsi həyata keçirilib. Belə ki, 2 istiqamət üzrə qiymətləndirmə nəticələri uğurlu hesab olunub, digərləri üzrə məqsədəuyğun hesab edilməyib. Həmin dəstəkləyici layihələr sırasında kriptovalyuta əməliyyatları ilə bağlı müsbət siqnallar var. Belə ki, kriptovalyuta əməliyyatlarını daha təhlükəsiz və şəffaf şəkildə icra etmək üçün “m10” tətbiqinin “Binance” platformasına inteqrasiyası nəzərdə tutulur. İstifadəçilər bu inteqrasiya vasitəsilə “Binance” cüzdanlarına mədaxil və məxaric edə bilərlər. Digər layihə “kriptobroker platforması” virtual aktivlərinin asan və təhlükəsiz şəkildə alışı, satışı və saxlanılması imkanlarını yaradır. Xüsusi tənzimləmə rejimi çərçivəsində sınaqların keçirilməsində məqsəd həmçinin bu istiqamətdə normativ-hüquqi bazanı formalaşdırmaq və təkmilləşdirməkdir.

Beləliklə, Mərkəzi Bankın test layihələri daha yaxın gələcəkdə Azərbaycanda kriptovalyutaların buraxılması və istifadəsinə imkan yarada bilər.

*E.CƏFƏRLİ*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




# Şənbə üçün nəzm









Xatirələr toz-duman,
Qoy sərilsin dənizə,
Bəlkə yelkən aparar, bəlkə lövbər batırar.
Ürəyində bir hənir, bir çırpıntı qalmasın.
Məni elə unut ki, adım da qoy yad gəlsin,
Özüm, sözüm bir yana,
Kölgəm də özgələşsin...
Bir gün rastlaşsaq əgər
hər hansısa dünyada
Ruhumu da tanıma, o da yad olsun daha.
Bir titrətmə, bir soyuq
Düşsə birdən canına
Özünlə tək qalanda.
Ürəyindən bir ağrı
Qopsa, mənəm uzaqda.
Dərman içmə boşuna...
Məni elə unut ki...

***

Sənə çatmaq ulduzlara çatmaq qədər çətin,
Ovuca su götürmək qədər asan.
Sənə toxunur,
Çatdığımı düşünürəm,
Vüsalına gülümsəyirəm.
Və...
Və ulduza çatmadan hicran başlayır...
Tənhalığın yüz ili kimi çəkir
Ömürdən sənsiz keçən hər gün.
Sən isə...
Sən isə mənsiz keçən hər gün
Dünənkindən daha çox can atırsan
Sonsuzluğa...
Sənlə mən vüsalın tərs,
hicranın düz üzüyük -
Adsız barmağa taxılan qızıl üzüyük...

***

Allah,
Uşaq vaxtı bəlkə də,
Kimisə incitmişəm,
Qəlbini sındırmışam,
Heç fikir verməmişəm.
Sən də, məni bağışla...

Allah,
Elə sənə and olsun,
And olsun ucalığa!
Heç mən bilməmişəm,
Bilərək etməmişəm,
Sən də məni bağışla...

Allah,
Mən də axı uşaqdım,
Çox şeyi anlamırdım.
Sən onda da böyükdün,
Sən indi də böyüksən,
“Suç kiçiyin” demisən,
Sən də məni bağışla...

***

Bakının küçələri Tiflisə oxşayırdı -
O eyvanlar, qapılar
Şəhərin gecəsinə
Açılan o sabahlar.
O ikiqat şüşəli
aynabənd artırmalar...
Sən də onda başqaydın -
Köhnə, əziz evlərin
İşıqlı həyətitək
Açıqdın -
Çox yaxındın,
Sən hamıdan doğmaydın,
Özünə oxşayırdın.

Küçələrin dirəkli,
Uca lampaları da
Şaqraq gülüşlərimtək
Yanırdı, parlayırdı...

Mən də onda başqaydım,
Səni mənə oxşadırdım...
Bakının küçələri də,
bizim könlümüzdəki
Tiflisə oxşayırdı...

***

Vualımın altında
Hansı makiyaj durur, şıqlığı ilə
bərq vurur?!.
Gecə keçəndən sonra
Miselyar sular ilə
Hansı silinir-gedir?
Bircə tikə pambığa hopur, sovrulur, itir?!.

Bəzən köməyə gəlmir
Ən bahalı, ən brend, ən bərkgedən
markalar,
Tonal kremlər, maskalar -
Örtüb gizlədə bilmir!

Ürəyimdə kirayənişin adla qalan,
Məni aldadan ağrılar,
Şırım-şırım yer alan,
dərin-dərin kök salan
Qırış kimi yaralar -
İpə-sapa yatmırlar...

Yığışım, köçüm bəlkə,
Başqa adlı dünyaya?!
Bu dünya çox bərbaddır,
İnsanlar mənə yaddır...
Yığışım, köçüm bəlkə?!.

Mən səninlə öyrənmişəm
Sevginin suç olmasına.
Mən səninlə öyrəşmişəm
Hər şeyin gec olmasına.

Gəlib “varam” deməyin də,
“Sənə yaram” deməyin də,
“Yaran saram” deməyin də
Heçdir, heç olmasına.

Bilmirəm ki, necə gedim?
Qəlbində kim? Necə bilim?
Sənə olan bu sevginin
Ağlaram puç olmasına...

***

Kaş Bakı bir süfrə ola -
Kənarı ipək saçaqlı...
Yığıb götürəm masamdan,
Dünənki qırıntıları
Arasında qala,
Çırpam eyvandan havaya,
Quşlar yesin,
Qurdlar yesin,
Və daha bitsin.
Bəmbəyaz yeni süfrəmi
yenə sərəm Yer üzünə.
Qoy yellənsin saçaqları
Azad-azad.
Ruhsuz-cansız küçələri dalan-dalan
Rahat-rahat, abad-abad
Dolansın həzin Gilavar,
Sabaha yenə ümid var..

Eyni qatarın sakinləriyik,
Ya da sərnişinləriyik.
Eh, nə fərqi var? Yol gedirik -
Ayrı-ayrı vaqonlarda.
Platforma da birdir, qatar yolu da,
Sənin fikrin-zikrin bəlli ünvanda,
Mənim fikrim heç Allah da bilmir harda...
“Bütün yollar Romaya aparır”, deyirlər.
Yox...
Yenə “Bakmil”ə gedir bütün arzular da.
“Sonuncudur! Vaqonlardan düşərkən
Əşyalarınızı götürməyi unutmayın...”, -
dedi bələdçi qız da...
Qoymadı kədəri unudam-atam
son stansiyada...

Yarı müdrik, yarı şıltaq,
Yarı böyük, yarı uşaq,
Yarı kötük, yarı yarpaq
Bir bəndən var, görürsənmi?..

Allah,
yuxum çəkilib ərşə!
Ya ərşi endir yerə,
Ya məni qaldır ərşə!
Ya da...
Ya da özün bilirsən necə...

Məni elə unut ki, elə bil sevməmisən,
Özün özünü aldat,
De ki, yuxu görmüsən...
Xəzri alsın-aparsın,
Gilavara çatdırsın,
O da sovursun göyə,
Heç izim də qalmasın -
Bu şəhərin, bu yurdun,
Bu ölkənin sərhədsiz,
Hüdudsuz enliyindən...
Səslərim daşa dəysin,
Sözlərim qaya olsun,
Qoy hardasa qırılsın,
bir ovuc torpaq olsun.

# Kinomuzun öz dili

## Yoxdur. Fikirləşib bu dili tapmaq lazımdır.



*Məqsəd Nur*

Fikirləşmək üçün yazılı və şifahi irsimiz OXUNMALIDIR. Necə oxunma və necə oxut(dur)ma məsələsi hələ də sualdır. Bəlkə təhsilin, elmin, mühitin, Mədəniyyət-2040 konsepsiyasının qarşısında duran ev tapşırığıdır?

Çətin və həyati əhəmiyyətli məsələdir. Çünki kinonun sehri hələ də mədəniyyətə, ideologiyaya öz təsir gücünü itirməyib. Bir vaxtlar, guya Ədəbiyyatın yerini tutacaqdı, olmadı, amma özünə yer elədi. Fəqət, Hollivud dövri-məzhəkəsi göstərdi ki, əsl kino “müəllif kinosu”dur. Ortaya ekran əsəri çıxarmaq üçün də Müəllif olmalıdır. Mədəniyyətimiz belə müəllifləri qaranlıqda şam işığı ilə axtarmaqdadır. Tapılmasa, özünü göstərə bilməsə, Tarkovski, Stanislavski, Nuri Bilgə Ceylan və digər bu kimi məşhuri-cahan adlara heyranlıq yolunda yamsılamaların davam etdirilməsi labüddür...

Yamsılama dil tapmaq deyil. Bənzətmə, təsirlənmə, öyrənmə və tətbiqetmə də yaxşıdır, amma o da dil tapmaq sayılmır. Kinomuz bu yamsılama əsasları üzərində qurulub - yaxşı nümunələrlə zəngindir, di gəl, öz dili yoxdur. Ona görə ki, Dil identikdir və bu özünəməxsusluq mədəniyyətimizin təməl qatındadır, üzə çıxmaq üçün vaxtını gözləyir. Qayda isə belədir: kim nə deyir desin, kinonun dili içəridə axtarılmalıdır, Biləcəridən o yandakılar yad dillərdədir, heç vaxt bizimki olmayacaq...

Biz də eyni smart telefonla “Tik-tok çəkirik”, onlar da. Nəticə çox fərqlidir. Mənzərədən tutmuş şərhlərə, klimat və mədəni atmosferədək tamam başqa dünyalardır. Gələcəkdə kinonu da Ədəbiyyat kimi Sİ (Süni İntellekt) “yazacaq”. Bircə identik dil tapmaq məsələsi olmayacaq. O dil ki, ilanı yuvasından çıxara, ruhu göylərə qaldıra bilər. Bəlkə, gənc rejissorlarımız irsimizi əxz etməlidir? Ədəbiyyatımızı sevməlidir?

Lakin irsi əxz edib sevmək kifayət deyil. Ədəbiyyatı da çox sevsə, gənc rejissor ədəbi irsin inteqral təsirinə necə düşərsə, elə bilər dünya ancaq Füzulidən, ya da “Yanıq Kərəm”dən ibarətdir. Halbu ki, mədəniyyət şifrələrimiz daha dərindədir. Onu tapmaq üçün təkcə irsəheyranlıq, irsəsədaqət, təəssübkeşlik və digər bu kimi “eqosentrik” cəhdlər dadımıza çatmayacaq.

OXUNMALI olanı necə tapmaq, kimə və necə oxut(dur)maq - budur sual. Mədəniyyət-2040 konsepsiyasının bətnində yerləşdirilməli hüceyrələrdən biri də bu olmalıdır, bəlkə?

# Qida təhlükəsizliyi üçün...

Sağlamlığımız üçün əsas şərtlərdən biri düzgün qidalanmadır. Lakin qidalanmadan öncə daha vacib bir nüans var: Ərzaqların düzgün şəkildə saxlanılması, sanitar qaydalara riayət edilməsi. Bu fakt qida təhlükəsizliyi nöqteyi-nəzərindən çox vacibdir. Dünyada hər keçən gün qida çeşidliliyi artır, ancaq bu çoxçeşidlilik heç də faydalı qidaların artımı demək deyil. Əksinə, istehlakçıları çaş-baş salacaq, fərqli, bir çox hallarda isə keyfiyyətsiz qidalar daha çox ortaya çıxmaqdadır.

Qida təhlükəsizliyi yalnız dövlət qurumlarının və istehsalçı müəssisələrin məsuliyyəti deyil. Hər bir vətəndaşın gündəlik həyatında diqqət yetirməli olduğu vacib məsələlər var. Məhsulların son istifadə tarixinin yoxlanılması, düzgün saxlanma qaydalarına riayət edilməsi və etibarlı mənbələrdən alış-veriş edilməsi kimi sadə görünən addımlar bir çox sağlamlıq problemlərinin qarşısını almağa imkan yaradır.

Məlumdur ki, insana lazım olan 20 amin turşusundan orqanizm yalnız 12-ni sintez edə bilir. Qalanlarını isə zülallarla zəngin qida vasitələri ilə almalıyıq. Heyvan və bitki mənşəli qidaların tərkibində zülallardan başqa çoxlu bioloji əhəmiyyətli maddələr də var ki, insanlar hələ uzun müddət bundan istifadə edəcəklər.

## Nələrə diqqət etməliyik?

Araşdırmalara görə, məhsul nə qədər təzədirsə, onun keyfiyyəti bir o qədər yüksək olur. Məsələn, süd sağılan an keyfiyyətli hesab edilir. Bir qədər sonra isə onun qaynadılması vacibdir.

**Hər il 600 milyon insan...**

Artıq 8 ildir ki, iyunun 7-si Ümumdünya Qida Təhlükəsizliyi Günü qeyd olunur. Əlamətdar gün BMT Baş Assambleyası tərəfindən 2018-ci ildə qəbul edilən qərara əsasən rəsmi olaraq elan edilib. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) son hesabatına əsasən, hər il 600 milyon insan qida ilə ötürülə bilən 200 növ xəstəlikdən əziyyət çəkir. Bu xəstəliyə yoluxanlar arasında isə gənclər üstünlük təşkil edir. Təşkilatın məlumatına görə, qida ilə yoluxan xəstəliklər dünyada hər 10 nəfərdən 1-nə təsir edir. Ümumdünya Qida Təhlükəsizliyi Gününün builki devizi “Hər yerdə təhlükəsiz qida” adlanır.

**Düzgün qablaşdırma vacibdir**

Qida təhlükəsizliyinin təmin olunmasında ən vacib amillərdən biri düzgün qablaşdırma hesab olunur. Çünki istehsal edilən məhsul nə qədər keyfiyyətli və yüksək standartlara uyğun olsa belə, onun xarici təsirlərdən qorunmasını təmin edən etibarlı qablaşdırma olmadığı halda məhsulun təhlükəsizliyi və istehlak



üçün yararlılığı ciddi risklərlə üzləşə bilər.

Müasir dövrdə qablaşdırma yalnız məhsulu daşımaq və ya satış üçün cəlbedici görünüş yaratmaq funksiyasını daşımır. Eyni zamanda məhsulu mikroorqanizmlərdən, tozdan, nəmdən, günəş işığından və digər zərərli amillərdən qoruyaraq onun keyfiyyətinin, qida dəyərinin və təhlükəsizliyinin istehlakçıya çatana qədər saxlanılmasında mühüm rol oynayır. Düzgün seçilmiş qablaşdırma materialları məhsulun saxlanma müddətini artırmaqla yanaşı, onun xarab olmasının qarşısını alır. Beləliklə, həm istehlakçıların sağlamlığını qoruyur, həm də qida tullantılarının azalmasına töhfə verir ki, bu da qlobal miqyasda qida ehtiyatlarından daha səmərəli istifadə olunmasına imkan yaradan mühüm amillərdən biri hesab edilir.

Xüsusilə süd məhsulları, ət və balıq kimi tez xarab olan qidaların xüsusi texnologiyalarla hazırlanmış qablaşdırmalarda saxlanılması məhsulun tərkibində zərərli bakteriyaların çoxalmasının qarşısını almağa kömək edir. Nəticədə istehlakçılar daha təhlükəsiz və keyfiyyətli məhsullardan istifadə etmək imkanı əldə edirlər.

**Ağıllı qablaşdırmaların tətbiqi**

Qablaşdırma üzərində yerləşdirilən etiketlər də qida təhlükəsizliyinin ayrılmaz hissəsidir. Çünki məhsulun tərkibi, istehsal və son istifadə tarixi, saxlanma şəraiti və allergenlər haqqında məlumatların aydın şəkildə təqdim olunması istehlakçıların düzgün seçim etməsinə və sağlamlıqları üçün risk yarada biləcək hallardan yayınmasına şərait yaradır.

Texnologiyaların inkişafı ilə birlikdə ağıllı qablaşdırma həllərinin tətbiqi də geniş yayılmağa başlayıb. Bu sistemlər məhsulun temperatur dəyişikliklərinə məruz qalmasını, təzəlik səviyyəsini və saxlanma şəraitini izləməyə imkan verdiyi üçün qida təhlükəsizliyinin daha effektiv şəkildə təmin edilməsinə xidmət edir.

Unutmaq olmaz ki, qida təhlükəsizliyi yalnız istehsal prosesində deyil, məhsulun istehlakçıya çatdırıldığı son ana qədər qorunmalıdır. Bu prosesdə düzgün qablaşdırma görünməyən, lakin insanların sağlamlığını qoruyan ən vacib müdafiə vasitələrindən biri kimi çıxış edərək təhlükəsiz qidalanmanın təmin edilməsində əvəzsiz rol oynayır.

Sürətli urbanizasiya, sənayeləşmə və qlobal ticarətin genişlənməsi qida məhsullarının keçdiyi mərhələlərin çoxalmasına və risklərin artmasına səbəb olur. Bütün bu problemlərin effektiv həllinə dövlət nəzarəti zərurət yaradır. Ölkəmizdə bu sahəyə dövlət nəzarətini təmin edən əsas qurumlardan biri Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyidir (AQTA). Agentlik 1 iyul 2018-ci ildən etibarən fəaliyyətə başlayıb. Agentliyin yaradılması Azərbaycanda qida təhlükəsizliyi sahəsində vahid dövlət nəzarətinin təmin edilməsi, əhalinin keyfiyyətli və təhlükəsiz qida məhsulları ilə təmin olunması, həmçinin qida sahəsində beynəlxalq standartlara inteqrasiyanı sürətləndirmək məqsədi daşıyır.

***Yeganə BAYRAMOVA***


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5359**
**Sifariş: 704**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova